DİQQƏT!

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 156 (6120) 9 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev faktoru güclü lider, qüdrətli dövlət amilinin bariz göstəricisidir

*Aparılan sorğunun nəticəsi bir daha onu sübut edir ki, Prezident İlham Əliyev alternativsiz siyasi lider kimi xalqın inam ünvanıdır*



Bax 2

## Prezidentin köməkçisi Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşüb



Bax 3

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir. AZƏRTAC xəbər verir ki, sentyabrın 8-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Hikmət Hacıyev İstanbulda fəaliyyət...

## Bu gün regionda əldə edilən uğurlar Türkiyənin və Azərbaycanın birgə səyləridir

*Azərbaycan və Türkiyənin dotluq və qardaşlıq tellərinin möhkəm təməllərə söykənməsi özünü bir sıra tarixi aspektlərdən təsdiq etməkdədir. Məhz bu sarsılmaz və əbədi bağların hər birində şəref, qürur, əzm, iradə və qətiyyətə xas olan mübarizlik...*



Bax 8

## Hotellərdə karantin qaydalarına əməl edilirmi?



Hotellərin karantin qaydalarına necə əməl etmələri ilə bağlı aparılan monitorinqlərin nəticələri məlum olub. Ölkə üzrə 600-ə yaxın oteldən 250-də yoxlamalar olub. Nəticədə bir sıra otellərə "sahman" nişanı verilib.

Xezerxeber.az-ın məlumatına görə, bunu Azərbaycan Hotel Assosiasiyasının icraçı direktoru Günay Sağlam deyib. O qeyd edib ki, monitorinqin əvvəlində hotellərin qaydalara əməl...

Bax 4

## Şagirdlərin distant təhsili ilə bağlı valideynlər üzərlərinə öhdəcilik götürəcək




Ümumi təhsil müəssisələrinin yeni tədris ilində necə fəaliyyət göstərəcəyi məlum olub. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti xüsusi tədris planlarına uyğun təşkil olunacaq və distant təhsilə sentyabrın 15-də start veriləcək.

Şagirdlərin əyani və distant təhsil alması üçün bəzi...

Bax 3

## Səfir Seyid Abbas Musəvi: "İran Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir"



Bizim qonşuluq, dostluq münasibətlərimiz xüsusi münasibətlərdir və heç bir üçüncü qüvvə bu münasibətlərə xələl gətirə bilməz. AZƏRTAC xəbər verir ki...

Bax 4

**Avropa Məhkəməsi ermənilərin Ramil Səfərovla bağlı iddiasını rədd etdi**



Bax 4

**Ermənistan hakimiyyətində xaos...**



Bax 12

**Hadisə Azərbaycana təşəkkür etdi**



Bax 16

# İlham Əliyev faktoru güclü lider, qüdrətli dövlət amilinin bariz göstəricisidir

*Aparılan sorğunun nəticəsi bir daha onu sübut edir ki, Prezident İlham Əliyev alternativsiz siyasi lider kimi xalqın inam ünvanıdır*



***Hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin təmin edilməsidir. Bugünkü qlobal problem olan koronavirusla bağlı ölkə rəhbəri də öz növbəsində bütün qabaqlayıcı və operativ tədbirlər həyata keçirir.***

Çünki xalqın bu virusun təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarını bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. Bu günlərdə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən açıqlanan sorğunun nəticələri də bir daha sübut edir k, ölkə əhalisinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevin fəaliyyətini, Onun qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatları, daxili və xarici diplomatiyanı, o cümlədən dünyanı bürüyən koronavirus pandemiyası dövründə gördüyü qabaqlayıcı tədbirləri tam dəstəkləyir. Bu, Azərbaycan reallığını əks etdirən sosioloji sorğunun nəticəsidir. Belə ki, hesabat 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edir. Respondentlərin Prezidentə və hakimiyyətin hər üç qoluna (qanunverici, məhkəmə və icraedici) münasibətini öyrənmək məqsədilə bu qurumlara etibarlılıq öyrənilib. Belə ki, respondentlərin mütləq əksəriyyəti 90,8 faizi Prezidentə etibar etdiyini bildirib. Sənəddə, həmçinin xüsusilə də məhz korrupsiya hallarının qarşısının alınması ilə bağlı dövlət başçısının həm kadr islahatlarının, həm də institusional islahatların aparılması ilə bağlı responentlərin 95,2%-i Prezident tərəfindən icra başçılarının vəzifədən azad olunmasında ictimai rəyin olması fikrindədir. Həmçinin bu istiqamətdə ölkə Prezidentinin fəaliyyəti 56,1% respondent tərəfindən çox səmərəli və bundan sonra da daha uğurlu olacaqları bildirilir. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi fəaliyyəti ilə bağlı keçirilən bütün sorğuların nəticələri həmişə yüksək rəqəmlərlə müşahidə olunur.

## Ardıcıl və düşünülmüş siyasi kurs

Bütün bunlar nəyi ifadə edir? Hər şeydən əvvəl onu vurğulayaq ki, Azərbaycanda dünyanın nüfuzlu sorğu mərkəzləri tədqiqat aparıblar. Heç kəs unutmamalıdır ki, reallıqda siyasətçinin sözünə yox, həyata keçirdiyi işlərə qiymət verilir. Prezident İlham Əliyev də məhz 17 illik fəaliyyətinə görə Azərbaycanda yeganə lider olduğunu sübut etmişdir. Həmçinin, bu sorğu bir daha sübut edir ki, Azərbaycanda İlham Əliyev siyasi lider kimi, alternativsiz lider kimi xalqın inam ünvanıdır.

## Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığına bariz nümunədir

Bu real faktordar ki, ölkə rəhbərinin qlobal təhlükə ilə mübarizədə ön sırada durması, vətəndaşlarını pandemiya təhlükəsindən qoruması mübarizədə iştirak edən digər insanlarda stimul, həvəs yaradır. Hər kəs çalışır ki, ölkə Prezidenti kimi ümumi bəla ilə mübarizə aparsın, əlindən gələni etsin. Odur ki, Azərbaycanın bu sahədə mütəxəssis olan həkimləri, tibb bacıları, ümumən tibb personalı gecə, gündüz demədən işləyir, karantində olan vətəndaşlara, virusa yoluxmuş şəxslərə xidmət edirlər. Çox qürurvericidir ki, hər zaman olduğu kimi cənab İlham Əliyev həkimlərin əməyini, fədakarlığını yüksək qiymətləndirib.

"Pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Prinsip etibarilə, səhiyyə sistemində çalışan insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Tikilmiş xəstəxanalar həkimlərin iş yeridir və həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olub". Bunu dövlət başçımız İlham Əliyev avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda çıxışı zamanı bildirib.

Dövlət başçısı bildirib ki, görülən işlər bu gün öz nəticəsini verib: "Görülən bütün işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaq".

Prezident İlham Əliyev bütün bu nailiyyətlərə düşünülmüş addımlar atmaqla, Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda olmaqla nail olunduğunu deyib: "Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni, görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi, bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, birgə səylərlə biz bu məsələni - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik".

## "İnsanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir"

Bu gün birmənalı şəkildə demək olar ki, Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində əhalinin bütün təbəqələrinin, xüsusi ilə də, sosial cəhətdən həssas insanların sosial-rifah halı dahada yaxşılaşır.

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısı İlham Əliyevin ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il görülən daha böyük uğurların nəticələrini gördükcə sabaha daha böyük bağlılıqla inanır. Bu yerd Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Ulu Öndər Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

## "Vətəndaşlarımız bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır"

İctimai rəydə birmənalı olaraq səslənən fikir ondan ibarətdir ki, Prezidentin sosial siyasəti həqiqətən də, inqilabi xarakter daşıyır. Vətəndaşlarımız bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Hər hansı bir forsmajor situasiya yaranarsa, dövlət onların problemlərini həll etməyə qadirdir. Bunun üçün Azərbaycan Prezidentinin siyasi iradəsi var. Bir sözlə, mövcud faktlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirir. Əhalinin sosial təminatı sahəsində bütün lazımi tədbirlərin görülməsi isə, heç şübhəsiz, Azərbaycanda əhalinin həyat şəraitinin yüksəldilməsi istiqamətində müntəzəm addımların atılmasını bir daha sübut edir. Çünki Prezident İlham Əliyevin 17 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Və nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi Liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı İlham Əliyev Liderliyi dövrünü yaşayır! Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Prezident İlham Əliyev tarixi çıxışlarının birində vurğulayıb ki, Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilib: "Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda, bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur".

Budur xalqa qayğı, budur hər bir vətəndaşın Prezidenti olmaq. Çünki hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin təmin edilməsidir. Sözsüz ki, bütün bunlar ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsi və xalqın öz Prezidentinə inamıdır. Beləliklə, keçirilən bütün sorğular bir daha onu təsdiqləyir ki, İlham Əliyev faktoru güclü lider, qüdrətli dövlət amilinin bariz göstəricisidir.

Beləliklə, yuxarıda misal göstərdiyimiz sorğuların nəticələri arxasında məhz bu istiqamətdə aparılan və böyük zəhmət tələb edən işlər durur! Və respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

**RƏFİQƏ KAMALQIZI**

# Adil Əliyev: "Azərbaycan-Türkiyə münasibətləri ən yüksək səviyyədə inkişaf edir"



***İkili standart prinsipini tez-tez eşidirik, əslində isə məsələnin mahiyyəti odur ki, mövqe heç vaxt dəqiq olmur. Belə demək mümkündürsə, hər iki tərəflə uzlaşmağa getməyin əsas simvoludur.***

Bu gün ölkəmiz ikili standart mövqeyindən tam kənardadır və bu siyasəti heç cür qəbul etmir. Məsələn, deyirik ki, Türkiyə bizim qardaşımız və dostumuzdur, ulu öndər Heydər Əliyev dediyi kimi, biz bir millət, iki dövlətik. Bu, dünən də belə idi, bu gün də belədir və təbii ki, sabah da belə olacaq. Mövqeyimiz vahiddir, bunu kimlərəsə xoş gəlmək üçün gizlətmirik. Aydın şəkildə bütün dünyaya bəyan edirik ki, Türkiyənin dostlarını dostlarımız, düşmənlərini isə düşmənlərimiz olaraq qəbul edirik. Vahid siyasətimizin ana xəttində hər iki ölkənin maraqlarının birgə müdafiəsi öz əksini tapır, vahid dilimizin, vahid millətimizin olmasına baxmayaraq, hər bir dövlət - istər Azərbaycan, istər Türkiyə öz müstəqil siyasətini həyata keçirir. Lakin söhbət hansısa maraqların kəsişməsindən gedirsə birlikdə vahid siyasət həyata keçiririk.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib. Adil Əliyev deyib: "Hazırda ölkəmizlə qardaş Türkiyənin münasibətləri bu günə qədər olmayan səviyyədədir, yəni tarixin heç bir mərhələsində hər iki dövlət bir-birinə bu qədər yaxın olmayıb. Məmnuniyyətlə deyə bilərik ki, hər iki ölkənin başçısı bir-birlərini təkcə dost olaraq görmür, eyni zamanda, qardaş olduqlarını hər dəfə bəyan edirlər. Bu dostluq və qardaşlıq təbii ki, bir çox ölkələri narahat edir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, buna təkcə digər xarici dövlətlər deyil, din və millət ortaqlığımız olan dövlətlərin bu cür qısqanması heç cür xoşagələn deyil.

Vahid dəyərlərə malik olmağımıza gəldikdə isə, bütün türk xalqlarının ortaq mirası olan "Kitabi-Dədə Qorqud" dastanında çox bəyəndiyim bir fikir var. Hər dəfə qeyd olunur ki, düşmənə qarşı Oğuz igidləri aralarında incikliyin olub-olmamasından asılı olmayaraq birləşirdilər. Bizdə isə bu incikliyin olmamasına baxmayaraq, biz düşmənə deyil, düşmənlərə qarşı kifayət qədər birləşmişik.

Xüsusilə qeyd etmək yerinə düşər ki, bütün məsələlərdə olduğu kimi, 12 iyul tarixində Ermənistan tərəfinin cəbhənin Tovuz rayonunda törətdiyi təxribat zamanı ilk dəstək nümayiş etdirən ölkə yenə Türkiyə oldu.

Biz Türkiyə ilə qardaş olmaqla yanaşı, oxşar talelərə malikik. Belə ki, hər iki ölkə hazırda terrorizmdən əziyyət çəkir. Bu gün torpaqlarımızın faktiki olaraq 20 faizi işğal altındadır, işğal edilmiş ərazilərdən hansısa məqsədlə istifadə edildiyi bu gün dünya ictimaiyyətinə məlumdur. Çox təəssüf hissi ilə qeyd etməliyik ki, ölkəmizin ərazisinin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin heç biri bu gün də Ermənistan tərəfindən icra edilməyib. Ermənistan tərəfinin beynəlxalq hüququ kobud şəkildə pozması və bundan sonra törətməyə cəhd etdiyi təxribatlar bu münaqişənin dinc yolla həllini istisna edir.

Ermənistanın törətdiyi təxribatların davamı olaraq, Azərbaycan sərhədini keçərkən yaxalanmış Ermənistan ordusuna məxsus olan zabit də öz açıqlamasında rəhbərlik etdiyi dəstə ilə birlikdə sərhədi keçmək istədiklərini, məqsədlərinin isə hərbi və mülkü şəxsləri öldürmək olduğunu bildirdi.

Bu gün ordumuz nəinki Cənubi Qafqazın, həmçinin dünyanın ən güclü ordularından biridir. Ordumuz tam müasir silah və sursatla təmin edilib, maddi texniki bazası gücləndirilib. Habelə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Sazişə əsasən iki ölkə arasında keçirilən hərbi təlimlər ordumuzun potensialının daha da artırılmasına yönəlmişdir.

Türkiyə ilə təlimlər həm də ona görə vacibdir ki, bu gün hərbi sahədə ən güclü qurum NATO-dur və təbii ki, həmin qurumda aparıcı ölkə Türkiyədir. Bu sahədə olan yaxınlaşma Azərbaycan Silahlı Qüvvələrinin müasirləşdirilməsinə kömək göstərir.

Habelə ölkəmizin təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr hərbi əməkdaşlıq baxımından gələcəyə müsbət vədlər verir. Bizim önəm verdiyimiz məsələlərin içərisində hərbi kadrların hazırlanması xüsusi yer tutur. Bu sahədə də təbii ki, Türkiyə təcrübəsi bizim üçün çox yerində və lazımlıdır.

Təbii ki, əməkdaşlığımızın fonunda Türkiyənin bizə göstərdiyi qardaşlığa da biz öz növbəmizdə yerində və vaxtında qarşılıq verməliydik, verdik də. Belə ki, hazırda Aralıq dənizində baş verən hadisələr tərəfimizdən diqqətlə izlənir və Yunanıstan tərəfinin eynilə Ermənistan kimi qərəzli mövqeyi bizdə təəssüf hissi doğurur. Biz isə baş verənlərə, sadəcə, izləyici kimi qalmırıq, qətiyyətli mövqeyimizi göstərərək Türkiyənin yanında olduğumuzu hər an bütün dünyaya çatdırırıq. Prezident İlham Əliyevin Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinə qeyd olunan mövqeyin çatdırılması və Türkiyənin yanında olduğumuzu bildirməsi təkcə Yunanıstan tərəfinə deyil, bütün dünyaya açıq mesaj idi. Dünyanın türkün gücünü bir daha görməsinin vaxtı çatıb".



## Şagirdlərin distant təhsili ilə bağlı valideynlər üzərlərinə öhdəçilik götürəcək

Ümumi təhsil müəssisələrinin yeni tədris ilində necə fəaliyyət göstərəcəyi məlum olub. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti xüsusi tədris planlarına uyğun təşkil olunacaq və distant təhsilə sentyabrın 15-də start veriləcək.

Şagirdlərin əyani və distant təhsil alması üçün bəzi qaydalar açıqlanıb. Bəzi valideynlər ölkədəki pandemiya şəraiti ilə əlaqədar övladının əyani təhsilə cəlb olunmasında maraqlı deyil. Amma narahat olmağa dəyməz. Bunun üçün onlara seçim imkanları verilib. Belə ki, valideynlər Təhsil Nazirliyi ilə müqavilə bağlayıb üzərlərinə müəyyən öhdəliklər götürməli olacaqlar. O da bildirildi ki, ümumi təhsil müəssisələrində Kiçik Summativ Qiymətləndirmələrin sayı azaldıla bilər.

# Prezidentin köməkçisi Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir. AZƏRTAC xəbər verir ki, sentyabrın 8-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media qurumlarının nümayəndələri ilə görüşərək müzakirələr aparıb.

Prezidentin köməkçisi özünün "Twitter" səhifəsində görüşlə bağlı yazıb: "İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşmək və açıq dialoq aparmaq çox xoş idi. Ermənistan-Azərbaycan münaqişəsi, regional və beynəlxalq mövzularda geniş müzakirələr apardıq".

Keçirilən görüşlərin əhəmiyyətini vurğulayan Hikmət Hacıyev deyib ki, biz media sahəsinin müxtəlif istiqamətləri üzrə ətraflı müzakirələr apardıq. Düşünürük ki, əməkdaşlıq üçün böyük potensial vardır. Türkiyə son dövrlərdə sənədli və bədii filmlərin hazırlanması sahəsində böyük təcrübə qazanıb. Türkiyə televiziyaları istər texnologiya, istərsə də kontent yaradılması baxımından yaxşı imkanlara malikdir. Bu xüsusda əməkdaşlıq üçün geniş imkanlar və böyük resurslar vardır.

Qeyd edək ki, üç gün davam edən səfər sentyabrın 8-də başa çatacaq.

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi ölkələrimiz arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılması işini daha da fəallaşdırmaqdır.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Əhməd İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov daxildirlər.

# Sahibə Qafarova ilk rəsmi səfərini Türkiyəyə edəcək



Sentyabrın 10-da Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti ilk rəsmi səfərini Türkiyəyə edəcək. Milli Məclisdən SİA-ya verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Ziyafət Əsgərov, deputatlardan Sevil Mikayılova, Fazil Mustafa, Elşən Musayev, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər zamanı nümayəndə heyətinin üzvləri Türkiyə Böyük Millət Məclisində parlamentin fəaliyyəti, qanun yaradıcılığı prosesi ilə yaxından tanış olacaq, Türkiyəli həmkarları ilə fikir mübadiləsi aparacaqlar. S.Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla görüşəcək. Görüşdə parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri, ikitərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi, hər iki ölkənin birgə həyata keçirdiyi qlobal layihələrin reallaşması, regional münaqişələrin həlli yolları parlament müstəvisində müzakirə ediləcək. S.Qafarovanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla və digər rəsmi şəxslərlə görüşləri nəzərdə tutulub. Səfər müddətində Milli Məclisin sədrinin başçılıq etdiyi parlament nümayəndə heyəti Ankarada "Anıtkabiri" ziyarət edəcək, şəhərin tarixi yerləri ilə tanış olacaqlar. Səfər sentyabrın 12-də başa çatacaq.

# Əfv Komissiyasının yeni üzvləri kimlərdir?



Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının tərkibinə yeni üzvlər daxil edilib. SİA xəbər verir ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamla yeni tərkibdə Samir Nuriyev (Komissiyanın sədri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri), Gündüz Kərimov (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi), Zahid Oruc (Milli Məclisin deputatı, İnsan hüquqları komitəsinin sədri), Fazil Mustafa (Milli Məclisin deputatı, Mədəniyyət komitəsi sədrinin müavini), Sədaqət Vəliyeva (Milli Məclisin deputatı), Bəyimxanım Verdiyeva ("Xan Şuşinski" Fondunun rəhbəri), Mehriban Vəliyeva (Akademik Zərifə Əliyeva adına liseyin direktoru) yer alıb.

# Avropa Məhkəməsi ermənilərin Ramil Səfərovla bağlı iddiasını rədd etdi



***Avropa İnsan Haqları Məhkəməsi ermənilərin azərbaycanlı zabit Ramil Səfərovla bağlı növbəti iddiasını rədd edib. SİA xəbər verir ki, Ermənistandan olan iki şikayətçi - Budapeştdə öldürülən erməni hərbçi Qurqen Marqaryanın babası Samvel Minosyan və Hayk Mukuçyanın Avropa İnsan Haqları Məhkəməsində Azərbaycan və Macarıstana qarşı qaldırdığı iddia təmin edilməyib.***

Avropa Məhkəməsi Ramil Səfərovun cinayəti şəxsi zəmində törətməsi ilə bağlı Macarıstan Məhkəməsinin hökmünə əsaslanaraq Azərbaycan dövlətinin Qurqen Marqaryanın qətlinə heç bir təsirinin olmadığı qənaətinə gəlib. Bununla yanaşı Avropa Məhkəməsi Macarıstanı da hər hansı bir məsuliyyətdən azad edib. İddiaçıların vəkilləri Siranuş Saakyan və Levon Qoryan isə bu işin hüquqi əhəmiyyətini və bunun üçün böyük ictimai marağı nəzərə alaraq, Avropa Məhkəməsinin qərarı qüvvəyə minməzdən əvvəl Böyük Palataya şikayət edəcəklərini bildiriblər.

Xatırladaq ki, R.Səfərov 2004-cü ilin yanvarında Müdafiə Nazirliyinin sərəncamı ilə NATO proqramları çərçivəsində Macarıstanın Budapeşt şəhərində keçirilən üç aylıq ingilis dili kurslarına ezam olunub. Vətənə dönməyə 20 gün qalmış, fevral ayının 19-da kurslarda iştirak edən Qurqen Markaryan adlı erməni zabitini Azərbaycan bayrağını təhqir etdiyinə görə öldürüb. Elə həmin tarixdə Budapeştin hüquq-mühafizə orqanları tərəfindən həbs olunub, Budapeşt Şəhər Məhkəməsinin 13 aprel 2006-cı il tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum edilib. 2012-ci ildə Macarıstandan Azərbaycana ekstradisiya edilib və Prezident İlham Əliyev tərəfindən əfv olunub.

# Rasim Quliyev: "Bir çox ölkələr Azərbaycanla əməkdaşlığa maraq göstərir"



***"Ümumiyyətlə, Azərbaycan dövləti öz xarici, iqtisadi siyasətində və digər dünya dövlətləri ilə münasibətində balanslı, açıq əməkdaşlıq siyasəti yürüdür". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.***

Siyasi ekspertin sözlərinə görə, bu münasibətlərdə yalnız milli dövlət maraqları əsas götürülür: "Ona görə də Azərbaycanın (Ermənistan istisna olmaqla) bütün dövlətlərlə əməkdaşlıq etmək imkanları vardır. Xüsusilə regionda marağı, təsiri olan, regionun və dünyanın siyasətinə töhfə verə bilən, eləcə də hansısa formada təsir etmək imkanlarına malik olan dövlətlərlə Azərbaycan əməkdaşlıq edir. Bu yalnız müsbət qiymətləndirilə bilər. Bununla belə yaxın qonşularımız Azərbaycanın regional və beynəxalq layihələrdəki iştirakı, təşəbbüsü ilə birbaşa həyata keçirilən böyük qlobal layihələrdən sözsüz ki, öz mənfəətini götürə bilər. Yəni onlar da əməkdaşlıq, maraqların uzlaşdırılması şəraitində bu imkanlardan bəhrələnə bilərlər. Bura xüsusilə Azərbaycanın şimal və cənub qonşuları, eləcə də böyük dövlətləri olan Rusiya və İranı şamil etmək olar.

Prezident İlham Əliyev sentyabrın 7-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edərkən də bildirdi ki, "Bizim ölkələrimiz, eyni zamanda, xarici siyasət istiqamətində üçtərəfli əməkdaşlıq formatlarında da fəal iştirak edir. Artıq neçə ildir ki, Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlıq formatı mövcuddur və bu format çox səmərəlidir". Yeri gəlmişkən qeyd etməliyik ki, Azərbaycanın coğrafi, geosiyasi mövqeyinə görə bir çox ölkələr Azərbaycanla əməkdaşlığa maraq göstərir. Azərbaycan açıq ölkə olduğu üçün bu əməkdaşlığa hər zaman hazırdır və bu əməkdaşlıqdan məmnunluğunu ifadə edir. Azərbaycan həmçinin bir-birinə antaqonist münasibətdə olan dövlətlərlə də əməkdaşlıq, dostluq edə bilir. Məsələn, İran Azərbaycan üçün dost, qonşu ölkədir. Eyni zamanda İranda bizim çoxsaylı azərbaycanlılar yaşayır. Bu baxımdan Azərbaycan-İran münasibətləri çox diqqətəlayiqdir. Azərbaycan tərəfi eyni zamanda İranın və İsrailin bir-birinə əks antaqonist münasibətləri fonunda hər iki dövlətlə dostluq etməyi bacarır. Bizim üçün İsrail də çox vacib partnyorlardan biridir. Ümumiyyətlə bizim əməkdaşlığımız heç bir zaman üçüncü ölkəyə qarşı yönəlməyib. Bu Azərbaycanın xarici siyasətində birmənalı şəkildə də qeyd olunur. Biz əməkdaşlığımızı qarşılıqlı maraqlar, milli və dövlət mənafeyi maraqları çərçivəsində qururuq".

***Ceyhun Rasimoğlu***

# Gürcü ekspert: "Ermənistan həmişə Gürcüstana xəyanət edib"



Əsrlər boyunca Ermənistan həmişə gürcü dövlətinə xəyanət edib və təəssüf ki, bu gün də bu, açıq şəkildə görünür. Bunu Trend-ə Qafqazın geotarixi və geosiyasətinin tədqiqi Beynəlxalq Mərkəzinin prezidenti Quram Marxuliya deyib.

Onun sözlərinə görə, qonşu Ermənistan gürcü qaçqınların öz doğma yurdlarına qayıtmasını istəmir: "Gürcülər dövlətin ərazi bütövlüyü bərpa olunmadan işğal olunmuş ərazilərə qayıtmaq niyyətində deyil. Gürcüstan hökuməti BMT ilə birgə bu istiqamətdə diplomatik mübarizə aparır". O bildirib ki, Ermənistanın hərəkətləri Gürcüstan dövlətinin bütövlüyünü tanımadığını göstərir: "Bu, xəyanət deyilsə, Ermənistanın hərəkətlərini başqa nə ilə izah etmək olar?"

Q.Marxuliyanın sözlərinə görə, Gürcüstanın uğurlu diplomatiyası sayəsində Ermənistan bu il səsvermədən boyun qaçırdı. Amma gələcəkdə Ermənistan öz mövqeyini dəyişməyəcək, çünki Gürcüstanın və Ermənistanın xarici siyasi meylləri fərqlənir.

# Hotellərdə karantin qaydalarına əməl edilirmi?

Hotellərin karantin qaydalarına necə əməl etmələri ilə bağlı aparılan monitorinqlərin nəticələri məlum olub. Ölkə üzrə 600-ə yaxın oteldən 250-də yoxlamalar olub. Nəticədə bir sıra otellərə "sahman" nişanı verilib.

Xezerxeber.az-ın məlumatına görə, bunu Azərbaycan Hotel Assosiasiyasının icraçı direktoru Günay Sağlam deyib. O qeyd edib ki, monitorinqin əvvəlində hotellərin qaydalara əməl etmə göstəriciləri 45% idi, sonradan bu rəqəm artaraq 75% olub. Günay Sağlam yoxlamaların bundan sonra da davam etdiriləcəyini qeyd edib.

Qurum rəsmisi bildirib ki, rayonlara gediş-gəlişin bərpa edilməsində nəzərdə tutulmuş qaydalara daha ciddi əməl edilməlidir. Çünki insanların bölgələrə axın edəcəyi gözlənilir. Mehmanxanalarda sanitar gigiyenik qaydalara əməl edilməli, girişdə hərarət ölçülməli, dezinfeksiya vasitələrindən istifadə olunmalı, xidməti heyət qoruyucu vasitələrlə təmin edilməlidir. Bununla yanaşı hər bir oteldə sanitar tələblərə cavab verən karantin otağı olmalıdır. Virusun aşkar edildiyi işçi və ya qonaq bu otaqda karantinə alınmalı, TƏBİB-lə əlaqə saxlandıqdan sonra həmin şəxs ən yaxın sağlamlıq mərkəzinə çatdırılmalıdır.





# Azərbaycan ilə Polşa arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Sentyabrın 8-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Polşanın ölkəmizdəki səfiri Rafal Poborski ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əməkdaşlıq münasibətlərindən bəhs edib, bu xüsusda ali səviyyədə həyata keçirilən səfər mübadilələrinin əməkdaşlığın inkişafına təkan verdiyini bildirib.

Cari ildə dünyanın üzləşdiyi pandemiyaya rəğmən ölkələrimiz arasında əməkdaşlığın davam etdirildiyini vurğulayan nazir bu xüsusda Polşa tərəfindən Azərbaycana COVID-19 ilə mübarizə çərçivəsində göstərilən humanitar yardıma görə minnətdarlığını ifadə edib.

Səfir Rafal Poborski öz növbəsində Polşanın Xarici İşlər naziri Zbiqnev Raunun səmimi təbriklərini nazir Ceyhun Bayramova çatdırıb. Diplomat ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikasının davam etdirilməsinin vacibliyini vurğulayıb.

Tərəflər Azərbaycan ilə Polşa arasında siyasi məsləhətləşmələrin davam etdirilməsi, eləcə də enerji, nəqliyyat, kənd təsərrüfatı, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxındır davam edən işğalçılıq siyasəti, təcavüzkar ölkənin işğal etdiyi ərazilərdə həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti, Ermənistan silahlı qüvvələrinin iyulun 12-16-da iki ölkə sərhədində törətdiyi hərbi təxribatı, eləcə də Ermənistan rəhbərliyinin bölgədə gərginliyin artmasına xidmət edən və münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirən fəaliyyəti barədə qarşı tərəfə ətraflı məlumat verib. Səfir Rafal Poborski Polşanın Şərq Qonşuluğu ölkələrində sabitliyin təmin edilməsində maraqlı olduğunu deyib və ölkəsi üçün beynəlxalq hüquqa hörmət prinsipinin vacibliyini diqqətə çatdırıb. Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Sergey Şoyqu: "Azərbaycan ən güclülər arasındadır"



Müdafiə Naziri Sergey Şoyqu Beynəlxalq Ordu Oyunlarının ən güclü ilk beşliyində Azərbaycan komandasının olduğunu deyib. SİA xəbər verir ki, o Beynəlxalq Ordu Oyunlarında 37 rekordun qeydə alındığını, onlardan 27-sinini Rusiya yığmasına məxsus olduğunu bildirib. Nazirin sözlərinə görə, Beynəlxalq Ordu Oyunlarının ən güclü ilk beşliyi arasında Belarus, Özbəkistan, Vyetnam və Azərbaycan komandaları olub. Şoyqu əlavə edib ki, komandalar arasında rəqabət yüksək səviyyədə keçib.

# Səfir Seyid Abbas Musəvi: "İran Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir"



Bizim qonşuluq, dostluq münasibətlərimiz xüsusi münasibətlərdir və heç bir üçüncü qüvvə bu münasibətlərə xələl gətirə bilməz.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Azərbaycanda yeni təyin olunmuş səfiri Seyid Abbas Musəvi etimadnaməsini Prezident İlham Əliyevə təqdim edərkən deyib.

# Vətəndaş cəmiyyətinin inkişafı hüquqi dövlət quruculuğunun əsas istiqamətidir

## *Hakimiyyətlə QHT-lər arasında yeni dialoqun başlaması bu faktorun göstəricisidir*

***Məlum olduğu kimi, avqustun 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkənin bir çox fəal qeyri-hökumət təşkilatları rəhbərlərinin daxil olduğu "İctimai Liderlər Platforması"nın üzvləri ilə onlayn görüş keçirib. Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev Prezidentin köməkçisi Hikmət Hacıyevə QHT-lərlə görüşdüyünə görə təşəkkür edib və bu təşəbbüsün QHT-hökumət münasibətlərində yeni keyfiyyət mərhələsinin başlanğıcı olacağına və QHT sektoru üçün prioritet olan məsələlərin həllinə təkan verəcəyinə əminliyini ifadə edib.***

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev Prezident İlham Əliyevin cəmiyyətimizdə QHT-lərin fəaliyyətinə və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsinə xüsusi önəm verdiyini qeyd edib. H.Hacıyev QHT sektorunun ölkəmizin ictimai həyatında fəal iştirakını vurğulayıb, hökumətin QHT-lərlə dialoqun genişlənməsində və QHT-lərin diqqətində olan məsələlərin müzakirəsində maraqlı olduğunu bildirib. O, vətəndaş cəmiyyəti institutlarının ölkəmizin dayanıqlı sosial iqtisadi inkişafı, vətənpərvərliyin gücləndirilməsi, milli maraqlarımızın qorunması, həmçinin təhsil, humanitar və ictimai əhəmiyyət daşıyan digər sahələrdə mühüm roluna toxunub, dövlət başçısının qeyd etdiyi kimi, ictimai nəzarət mexanizmlərinin və onun tətbiqinin səmərəliliyinin artırılmasının zəruriliyini diqqətə çatdırıb.

### Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı dövlət siyasətidir

Azərbaycan dövləti ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının formalaşmasına və inkişafına daim ciddi önəm verir. Azərbaycan müstəqilliyini ikinci dəfə elan etdikdən sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin davamı kimi vətəndaş cəmiyyəti təsisatlarının da daha münbit şəraitdə inkişaf etməsi istiqamətində bir sıra işlər görüldü. 1993-cü ildən başlanan proses çərçivəsində vətəndaş cəmiyyəti, eləcə də QHT-lərlə bağlı qanunvericilik sisteminin yaradılması, hökumətlə münasibətlər, bir sıra mühüm QHT hadisələri və s. nəzərə çarpdı. Müstəqilliyin ilk illərində "İctimai birliklər haqqında qanun"un qəbul olunması və 200-ə yaxın qeyri-hökumət təşkilatı dövlət qeydiyyatına alınsa da, demək olar ki, bu sahədə heç bir irəliləyiş hiss olunmamışdı. Ölkədə davam edən qeyri-sabitliyin, vətəndaş müharibəsi təhlükəsinin qarşısını almaq üçün 1993-cü ildə xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə 1993-1995-ci illərdə aparılan mühüm tarixi tədbirlər nəticəsində ölkədə siyasi sabitlik və cəbhədə atəşkəs təmin olundu. Ulu Öndər Heydər Əliyevin tarixi mübarizəsi öz məntiqi və hüquqi nəticəsini 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında tapdı. Bu konstitusiya dövlətçiliyimiz və həm də vətəndaş cəmiyyətimiz üçün mühüm tarixi sənəd oldu. Məhz QHT-lərin inkişafı istiqmətində Ulu Öndər Heydər Əliyev tərəfindən atılan mühüm addımlar bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çünki bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı dövlət siyasətidir və bu sahədə qanunvericilik daim təkmilləşdirilir, vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi ilə bağlı mühüm işlər görülür, onların inkişafı üçün əlverişli mühit yaradılıb. Bunun nəticəsidir ki, ölkəmizdə qeyri-hökumət təşkilatlarının fəaliyyəti ildən-ilə genişlənir. Son 25 il ərzində dövlət qeydiyyatına alınmış təşkilatların sayı 3 dəfə artaraq, hazırda 3 mini ötüb. Bu gün qeyri-hökumət təşkilatları ictimai həyatın müxtəlif sahələrində çox mühüm işlər görərək, uğurlu proqram və layihələr həyata keçirirlər. Bununla da dövlətimizin və cəmiyyətimizin davamlı inkişafında onların rolu getdikcə artır.




Qeyd edək ki, Azərbaycanda demokratik dövlətin əsas göstəricilərindən sayılan vətəndaş cəmiyyəti institutlarının inkişaf səviyyəsi Avropa və ümumilikdə Qərbin hər hansı ölkəsinin müvafiq qurumlarının səviyyəsindən heç də aşağı deyil. Əksinə, bir sıra göstəricilərinə, məsələn, çoxtərəfli və əhatəli dövlət dəstəyinə görə, Azərbaycan bu sahədə bir çox inkişaf etmiş Avropa ölkələrini üstələyib. Bu isə, ilk növbədə, dövlətin ölkədə vətəndaş cəmiyyəti institutlarını yüksək səviyyədə formalaşdırmaq əzmindən irəli gəlib.

### Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası - dövlət münasibətlərinin uğurlu modeli

Azərbaycan dövləti ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının formalaşmasına və inkişafına daim ciddi önəm verir. Təsadüfi deyil ki, dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlər modelinin uğurlu nümunəsi kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təsis olunması dövlət ilə QHT-lər arasında əməkdaşlığın inkişafının bir nümunəsinə çevrilib. Hazırda dövlət münasibətlərinin uğurlu modeli vətəndaş cəmiyyəti institutları və dövlətə bərabərhüquqlu tərəfdaşlar kimi bir-birinin fəaliyyətinə mane olmadan, indiyə qədər mövcud olan neqativ faktorları neytrallaşdırmaqla cəmiyyəti narahat edən problemlərin həllində əməkdaşlıq etməyə imkan verir.

### Pandemiya ilə mübarizədə QHT-lərin rolu

Bu günün mövcud pandemiya dönəmi vətəndaş və vətəndaş cəmiyyəti institutlarının birgə fəaliyyətini, öz güc və potensialını lazımi istiqamətə, lazımi problemlərə yönəltmək zərurətini ortaya qoyur. Belə bir ərəfədə media və QHT sektorunun vətəndaş cəmiyyətləri olaraq sərgilədiyi mövqe və meydana çıxardığı problemlər və onun həllinə yönəlik ictimai nəzarətin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətin, dövlətin pandemiya ərəfəsində inkişafı və tərəqqəsi üçün vacib olan ən mühüm məqamlar müzakirə olunmaqla çözüm yolları araşdırılır.

QHT-lər də bu ağır dönəmdə öz sözlərini deməyə bacardılar. Dünya dövlətlərinin koronavirus (COVİD-19) pandemiyasına qarşı mübarizə apardığı hazırkı dövrdə Azərbaycan qlobal təhlükədən maksimum az itkiylə çıxmaq üçün atdığı çevik və qətiyyətli qərarları ilə seçilir. Eyni zamanda, ölkəmizin vətəndaş cəmiyyəti institutları, xüsusi ilə QHT-lər, mətbuat COVİD-19 pandemiyasına qarşı mübarizə sahəsindəki dövlət siyasətinə yaxından dəstək verərək vətəndaşların maarifləndirilməsində və onlara müxtəlif cür yardımların göstərilməsində fəal iştirak edirlər. Dövlətin koronavirusla mübarizə sahəsində həyata keçirdiyi işlərə QHT-lərin də yaxından dəstək verdiyi göz önündədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyev bildirib ki, koronavirus pandemiyası ilə mübarizədə dövlət qurumları və özəl sektorla yanaşı ictimai təşkilatlar da ön sıralarda yer alıblar: "Bu qlobal təhlükəyə qalib gəlmək üçün yalnız dövlətin həyata keçirdiyi tədbirlər yetərli deyil. Vətəndaş cəmiyyəti institutları bu məsələdə mühüm rola malikdirlər. Ölkənin aparıcı QHT-ləri bu prosesə qoşularaq istiqamətləniblər. Əsas istiqamət də əhalinin düzgün formada maariflənməsidir. Hər bir QHT ayrı-ayrılıqda koronavirusla mübarizədə öz töhfəsini verə bildi. İstər mediada, istər sosial şəbəkələrdə təbliğatlarını apardılar, hətta sosial roliklər hazırlayanlar da oldu. Mövcud vəziyyətdə QHT-lərin fəaliyyətinin çevik əlaqələndirilməsini və bu istiqamətdə görüləcək işlərin effektivliyinin daha da artırılması məqsədilə onlayn ümumrespublika konfransı keçirilib. Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna Şura üzvlərinin və Katibliyin əməkdaşları, eləcə də QHT-lər vəsait köçürüblər. Martın 27-dən etibarən Şuranın REAL TV ilə birlikdə "Evdə qal, cəmiyyəti qoru!" adlı ictimai monitorinq və məlumatlandırma kampaniyasına keçiriblər. QHT-lər istər əhalinin nisbətən çox olduğu yerlərdə - küçələrdə, parklarda, istərsə də sosial şəbəkələrdə və mediada vətəndaşları özlərini təcrid etməyə və evdə qalmağa çağırırlar. İndiki həssas dönəmdə QHT-lərin dövlətimiz və cəmiyyətimiz ilə yüksək həmrəylik nümayiş etdirməsi vətəndaşların karantin qaydalarına riayət etmələri, birlik göstərmələri üçün önəmli motivasiyadır. Şura Mətbuat Şurası ilə birlikdə COVİD-19 pandemiyası ilə mübarizədə QHT- Media əməkdaşlığının gücləndirilməsinə həsr olunan onlayn konfrans da keçirib".

A.Quliyev onu da bildirib ki, bu il QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən maliyyə yardımı ayrılan 423 layihə var və həmin layihələrin 290-nı pandemiya dövrünə həsr olunub. Həmin QHT-lər də həm ərzaq yardımı, həm də tibbi yardımlar göstəriblər.

Şura rəsmisi onu da bildirib ki, pandemiyaya qarşı mübarizədə ilk növbədə görülməli olan iş maarifləndirmə işidir. Əhalinin maarifləndirilməsi məsələsi çox vacibdir: "Birincisi, insanlar bilməlidir ki, pandemiyanın doğurduğu təhlükə nədən ibarətdir? Hər bir kəs təhlükədən qorunmaq üçün karantin qaydalarına əməl etməlidirlər. Ona görə pandemiyanın tezliklə başa çatması yalnız dövlətimiz üçün yox, həm də bizim hər birimiz üçün həyati əhəmiyyət kəsb edir. Bu cəhətdən Şura da mühüm ictimai institut olan QHT-ləri ümumi təhlükəyə qarşı mübarizə məqsədi ilə konsaldasiya edərək həm televiziyaların, həm internet saytlarının, həm də sosial medianın imkanlarından istifadə edərək vətəndaşları maarifləndirməyə çalışır. Vətəndaşlardan yalnız və yalnız məsuliyyət tələb edirik. Xahiş edirik, məsuliyyətli olun, öz yaxınlarınıza arxa olun, dayaq olun, yaşlı nəslin nümayəndələrinə arxa olun, onları qoruyun, özünüzü qoruyun, uşaqlarınızı qoruyun. Mən əminəm ki, həm milli həmrəylik, həm məsuliyyət, həm də milli birliyimiz bizə imkan verəcək ki, bu xəstəliyə qalib gələk. Biz birlikdə güclüyük".

A.Quliyev onu da vurğulayıb ki, ümumiyyətlə, cəmiyyəti QHT-lərsiz təsəvvür etmək olmaz: "QHT-lər bir növ dövlət üzərində arbitr rolunu oynayır, Azərbaycan hakimiyyəti də QHT-lərin cəmiyyət üçün vacibliyini nəzərə alaraq, onların inkişafı üçün hər bir şərait yaradır. Məhz bunun nəticəsidir ki, bu gün dövlətlə QHT-lər arasında əməkdaşlıq yüksək səviyyədədir. zərbaycan hökuməti ilə vətəndaş cəmiyyəti arasında elə bir sahə yoxdur ki, əməkdaşlıq olunmasın. Artıq hökumət QHT-ləri tərəf kimi deyil, partnyor kimi qəbul edir. Eyni zamanda, dövlət qeyri-hökumət təşkilatları ilə ictimai əhəmiyyətli məsələlərlə bağlı yaxından işbirliyi qurur, həmin təşkilatları dəstəkləyir. Və bu gün keçirilən dialoq, bütövlükdə, dövlət-QHT münasibətlərinin, sözün əsl mənasında ən yüksək səviyyədə olduğunun göstəricisidir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Sevinc Fətəliyeva: “Azərbaycan-Türkiyə münasibətlərində hərbi əməkdaşlıq mühüm yer tutur”

***“Azərbaycan və Türkiyəni tarixi, milli, dini və mədəni köklər bir-birinə bağlayır. Bu səbəbdən də münasibətlərimiz dostluq, qardaşlıq prinsiplərinə və strateji müttəfiqliyə əsaslanır. Tarixi köklərə, qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə uğurla inkişaf edir. Hər iki ölkə beynəlxalq müstəvidə də bir-birini birmənalı olaraq dəstəkləyir”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.***



Sevinc Fətəliyeva bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən əlaqələr uğurla inkişaf edir. Azərbaycan-Türkiyə əlaqələrində hərbi əməkdaşlıq mühüm yer tutur. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib. Ümumilikdə, Türkiyə Azərbaycanda hərbi kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər.

Millət vəkili qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbulu zamanı səsləndirilən fikirlər iki ölkə arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyini əminliklə söyləməyə imkan verir. Prezident İlham Əliyev hər iki tərəfə fayda gətirən əlaqələrin bu gün müxtəlif istiqamətləri əhatə etdiyini, o cümlədən də hərbi-texniki sahədə əməkdaşlığın getdikcə dərinləşdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı bildirib ki, hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var.

S.Fətəliyevanın fikrincə, iki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini bir sıra məqamlar şərtləndirir. Birincisi, NATO ilə əməkdaşlıq sənədləridir. Bu müstəvidə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir. İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr, üçüncüsü isə Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır.

Deputat söyləyib ki, iki ölkə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur: “Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində yeni birgə əməkdaşlığa qədər məsələlər daxildir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır. Eyni zamanda, Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə məsələsi Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. Belə ki, iki ölkə terrorizmdən əziyyət çəkməklə bu istiqamətdə ayrı-ayrılıqda və birgə mübarizənin bu günü və perspektivlərini həmişə diqqət mərkəzində saxlayır. Eləcə də, Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı Azərbaycan narahatdır. Ermənistan ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir. Eyni zamanda, dövlət sərhədində son gərginliklər Ermənistanın təxribatıdır, terror aktı törətmək üçün sonuncu cəhd zamanı təmas xəttini keçmək istəyərkən erməni zabiti saxlanılıb və o, artıq etiraf edib ki, onun qrupu bizim hərbçilərimizə və mülki şəxslərə hücum etmək məqsədi güdüb. Bütövlükdə isə, Ermənistan Azərbaycana düşmən mövqedədir və bu onların qərarı olub. Sözsüz ki, Ermənistanın istənilən ölkə ilə sıx hərbi əməkdaşlığı narahatlıq doğurur. Ermənistanın təxribatından dərhal sonra Azərbaycan Rusiyadan Ermənistana intensiv silah təchizatına da reaksiya göstərib”.

# Əsəd Qayser: “Dağlıq Qarabağ məsələsində Pakistan daim Azərbaycanın yanındadır”



Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı səfiri Əli Əlizadə bu ölkənin Milli Assambleyasının sədri Əsəd Qayser ilə görüşüb.

Əli Əlizadə Azərbaycanın Pakistanla əlaqələrə xüsusi önəm verdiyini, bu dövlətin Azərbaycan üçün dost və qardaş ölkə olduğunu qeyd edib. İki ölkə rəhbərləri arasındakı yaxın dostluq və qardaşlıq əlaqələrinin, onların davamlı görüşlərinin ölkələrimizin münasibətlərinin ən yüksək səviyyədə təşəkkül tapmasına şərait yaratdığını vurğulayan səfir Azərbaycan ilə Türkiyənin bütün beynəlxalq məsələlərdə bir-birini dəstəklədiyini bildirib.

Ermənistanın Azərbaycana qarşı son təxribatları və məkrli niyyətləri haqqında məlumat verən səfir Pakistan Hökumətinin ölkəmizin haqlı mövqeyini dəstəklədiyinə və işğalçını qınadığına görə təşəkkür edib. Əli Əlizadə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaranmasında parlamentlərin önəmli rolunu qeyd edib, 2012-ci ildə Pakistan Senatının, 2017-ci ildə isə Milli Assambleyasının xarici işlər üzrə daimi komitələrinin Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyən, eləcə də Xocalı soyqırımını tanıyan qətnamələr qəbul etməsinin bu dostluğun və qardaşlığın təzahürü olduğunu, daim minnətdarlıqla qarşılandığını vurğulayıb.

Əsəd Qayser Azərbaycanın Pakistan üçün qardaş ölkə olduğunu, rəsmi İslamabadın ölkəmizlə siyasi, iqtisadi və parlamentlərarası əlaqələrin daha da inkişaf etdirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. Dağlıq Qarabağ məsələsində Pakistanın daim Azərbaycanın yanında olduğunu və onu dəstəklədiyini bildirən spiker Dağlıq Qarabağ və Kəşmir münaqişələrinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllinin zəruriliyini bildirib.

Parlamentlərarası münasibətlərin önəmini vurğulayan Əsəd Qayser Azərbaycan parlamenti ilə əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində işlərin davam etdiriləcəyini, bununla yanaşı, iqtisadi-ticari sahələrdə də əməkdaşlığın genişlənməsi üçün səylərin artırılacağını qeyd edib.

# Bəhruz Quliyev: “Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsinə mühüm töhfələrini verib”

***“Azərbaycan dövləti daim İslam ölkələrinin birliyi və həmrəyliyi istiqamətində mütərəqqi addımlarını atıb və əbəs deyil ki, bu addımlar müsəlman dünyası tərəfindən də yüksək şəkildə dəyərləndirilir”. Bunu Trend-ə açıqlamasında “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edərkən irəli sürdüyü fikirləri şərh edərkən deyib.***



Baş redaktorun sözlərinə görə, dövlətimizin başçısı iranlı səfirlə görüş əsnasında bir sıra məsələlər haqqında fikrini çatdırarkən, mövzunun əsas istiqaməti olaraq Azərbaycanın işğalçı Ermənistan tərəfindən təcavüzə uğraması faktını önə sürüb və işğal faktının nəinki vətəndaşlarımıza, o cümlədən, tariximizə, milli və dini irsimizə, abidələrimizə, xüsusilə isə məscidlərimizə qarşı vəhşilik, vandallıq aktlarını törədiblər.

“Söz yox ki, bütün bu faktlar etnik təmizləmə və əsrlərdən gələn tariximizə qarşı törədilən çoxsaylı bəd, düşmənçilik əməlləridir”, deyən Bəhruz Quliyev əlavə edib ki, bu vəhşiliyin ən pik nöqtəsi kimi 20-ci əsrin sonlarının ən qanlı faciələri sırasına daxil olan Xocalı soyqırımı aktını göstərmək olar: “Lakin unutmamalıyıq ki, Xocalı soyqırımına qədər və sonra da ermənilər qanlı səlib yürüşləri ilə digər bölgələrimizdə də çoxsaylı qətllər, amansızlıqlar törədiblər. Bu amansızlıqların hər birinin kökündə müsəlman azərbaycanlı faktoruna qarşı dini, milli dözümsüzlük, assimlyasiya maraqları dayanıb və bütün dünya, xüsusilə İslam ölkələri Ermənistanın həmin əməllərinə qarşı etiraz səslərini bu və ya digər şəkildə qaldırıblar”.

“Əbəs deyil ki, Prezident İlham Əliyev cənablarının çoxsaylı fəaliyyət istiqamətlərindən biri olan birlik, bərabərlik siyasəti öz dəstəyini alıb, bu gün də dəstəklənməkdə davam edir”, deyən siyasi ekspertə görə, dövlətimizin başçısı İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə də kifayət qədər böyük, mühüm töhfələrini verib, bu səylər hal-hazırda da davam etdirilir. Nəticədə həmin səylərə göstərilən dəstəklər eyni zamanda, Azərbaycanın haqq-ədalət çağırışlarına, ədalətli mövqeyinə də öz davamlı təsirlərini göstərir: “Hətta pandemiyanın dünyaya yaşatdığı böhranlı vəziyyətlər zamanında da cənab Prezident İlham Əliyev video-konfranslar vasitəsi ilə müsəlman ölkələrini əhatə edən toplantıların təşəbbüskarı, ev sahibi kimi çıxış etdi, bəzi ölkələr arasında mövcud olan müəyyən problemlərin həlli istiqamətində səylərini göstərdi, nəticələr əldə etdi. İƏT, Türk Şurası kimi qurumların təmsilçi ölkələri, dövlət başçıları və rəsmi şəxsləri həmin təşəbbüslər sayəsində bir daha əmin oldular ki, ölkəmizin rəhbəri bütövlükdə İslam ölkələrinin birliyində, həmrəyliyində ən maraqlı olan şəxsdir və həmin siyasətin dəstəklənməsi də bu reallığı təsdiq etməkdədir”.

Bəhruz Quliyev qeyd edib ki, bütün bu gerçəkliklərin təməlində dayanan daha bir vacib məqam Prezident İlham Əliyevin beynəlxalq liderlik statusunda olmasıdır. “Məhz bu ali status dövlətimizin başçısının davamlı təşəbbüslərinin, mütərəqqi ideyalarının, sülh və həmrəylik çağırışlarının nəinki İslam ölkələri, eləcə də dünya birliyi tərəfindən qəbul olunması, dəyərləndirilməsi ilə sübut olunmaqdadır” - deyə, “SƏS” qəzetinin baş redaktoru vurğulayıb.

# Məleykə Abbaszadə: ”Abituriyentlər ixtisaslarını özləri seçməlidirlər”

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə dünən keçirdiyi onlayn mətbuat konfransında bildirib ki, hər bir abituriyent ixtisaslarını özü seçməlidir. SİA xəbər verir ki, M.Abbaszadə vurğulayıb ki, bu, hər bir abiturient üçün çox vacibdir. ”Çünki çox zaman bu məsələ kimlərəsə həvalə edilir. Sosial medianı izləyərkən görürük ki, müxtəlif qruplar formalaşdırılır və kimlərsə abituriyentin yerinə ixtisas seçimi edir. Bizim abituriyentlərə kömək edilməsi üçün məlumat mərkəzlərimiz var və onlar abituriyentlərə ödənişsiz kömək edirlər” - deyə, Şura sədri bildirib.

Qeyd edək ki, ali təhsil müəssisələrinə qəbul olunmaq üçün ixtisas seçimi sentyabrın 10-dan 20-dək internet vasitəsilə aparılacaq. Bu müddət ərzində müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında öz ixtisas seçiminə bir daha nəzər salmaq, seçimini dəqiqləşdirmək və təsdiqləmək vəzifəsi durur. İxtisas seçimi Mərkəzin rəsmi saytı vasitəsilə elektron qaydada aparılır və texniki cəhətdən bu prosesi həyata keçirmək çox sadədir. Proqram təminatı elə qurulub ki, sizin səhv etmək ehtimalınız yoxdur və ərizəni yadda saxla düyməsini basdıqda səhv və onun mahiyyəti barədə xəbərdarlıq edilir. DİM tərəfindən abituriyentlərə kömək etmək məqsədilə I, II,III və IV ixtisas qrupları üzrə ”İxtisas seçimi zamanı nələrə diqqət yetirməli” adlı vəsaitlər də nəşr ediləcək. Bu kitabçalarda müsabiqə şərtləri, ixtisas qrupları üzrə plan yerləri, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanması və s. məlumatlar öz əksini tapır. ”Abituriyent” jurnalının 4 saylı buraxılışında ”Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma qaydası, qəbul aparılan ixtisaslar, plan yerləri, jurnalın 2 saylı buraxılışında isə ötən ilin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları dərc olunub.

**Nigar Məmmədova**

# Naqif Həmzəyev: "Prezident qətiyyətli diplomatiya siyasəti milli maraqlarımıza tam cavab verir"



***"Azərbaycanın dünyada müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan bir dövlət kimi tanınması ölkəmizin nüfuzunun yüksəlməsini, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsini təmin edib". SİA-nın verdiyi məlumata görə, bunu açıqlamasında Milli Məclisin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətinin üzvü Naqif Həmzəyev bildirib.***

Millət vəkili qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi potensialının güclənməsi, həyata keçirilən müstəqil xarici siyasət sayəsində ölkəmizin ətrafında əlverişli xarici mühit formalaşıb, dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlər mövcuddur və bu, daim inkişaf etdirilir: "Prezident İlham Əliyevin Yaponiyanın və Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnaməsini qəbul edərkən səsləndirdiyi fikirlər də Azərbaycanın xarici siyasətinin əsasını milli maraqlar, tərəfdaşlıq, qarşılıqlı əməkdaşlıq, regionun sabitliyinin, təhlükəsizliyinin qorunub saxlanması təşkil etdiyini təsdiq etdi.

Eyni zamanda unikal əməkdaşlıq məkanına çevrilən Azərbaycanda həyata keçirilən uğurlu xarici siyasət milli maraqlara xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri respublikamıza həm siyasi, həm də iqtisadi dividendlər qazandırıb". Millət vəkili vurğulayıb ki, Azərbaycanla Yunanıstan arasında diplomatik münasibətlərin qurulması ölkəmizin dövlət müstəqilliyinin ilk dövrünə təsadüf edir. Həmin vaxtdan etibarən sabit inkişaf xətti götürərək tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər bir çox mühüm hadisələrlə əlamətdar olub. Azərbaycan qədim tarixə və mədəniyyətə malik olan Yunanıstan ilə əlaqələrin ildən-ilə inkişafına xüsusi əhəmiyyət verib. Lakin Yunanıstanın əvvəlki hökuməti hakimiyyətə gələndən sonra iki ölkə arasında əməkdaşlıqda soyuq münasibət yaranıb. Bu da Yunanıstan hökumətinin istəyi ilə baş verib. İxtisasca diplomat olan, dünyanın ən nüfuzlu ali məktəblərindən birində 5 il diplomat yetişdirən, diplomatik qaydaları yüksək səviyyədə bilən və daim bu qaydalara riayət edən Prezident İlham Əliyev Yunanıstanın səfiri ilə açıq danışaraq əməkdaşlığımıza mənfi təsir göstərən məsələlərə diqqəti yönəldərək, Azərbaycanın milli maraqlarının ən vacib məsələ olduğunu bir daha nümayiş etdirib.

Azərbaycanın Yunanıstanla qarşılıqlı münasibətlərə mürəkkəblik gətirən amillərdən biri də bu ölkənin ölkəmizin strateji müttəfiqi, qardaş Türkiyə ilə ziddiyyətli və münaqişə elementlərinə malik əlaqələrinin olmasıdır. Prezident İlham Əliyev bildirib ki, biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq.

Azərbaycan Yunanıstanla siyasi əlaqələrini qurarkən və inkişaf etdirərkən Türkiyə ilə əlaqələrini mənfi təsirdən qoruduğu halda, Yunanıstanın işğalçı Ermənistanla, Kiprlə hərbi əməkdaşlığı narahatlıq yaratdı. "Ermənistan bizim ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir. Yeri gəlmişkən, iki il əvvəl Avropa İttifaqı və Azərbaycan "Tərəfdaşlıq prioritetləri" adlı sənədi paraflayıblar. Orada Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyir". Ölkə Prezidentinin bu fikirləri Yunanıstanın nisbətən bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirməsinə şərait yaradacaq".

Xatırladaq ki, müxtəlif dövrlərdə Azərbaycanda səfərdə olmuş Yunanıstan nazirləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində BMT qətnamələrinin yerinə yetirilməsini, istənilən ölkə ərazisinin işğal olunmasına qarşı çıxdıqlarını bildiriblər. İnanırıq ki, Yunanıstanın yeni hökuməti də ölkələrimiz arasında münasibətlərin intensiv inkişafına, faydalı əməkdaşlıqlara maraqlı olacaq.

## Səfir: "Azərbaycan və Türkiyə mübarizlikləri ilə ortaq maraqlarını, təhlükəsizliklərini qoruyacaqlar"



Türkiyənin qardaş ölkə Azərbaycanla münasibətləri strateji səviyyədədir. Çoxtərəfli dostluğumuz yüksəksəviyyəli qarşılıqlı səfərlərlə güclənir və ölkələrimiz bir çox sahələrdə başqalarına nümunə olacaq strateji layihələr həyata keçirirlər. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Türkiyənin Ukraynadakı səfiri Yağmur Əhməd Güldərə söyləyib.

Səfirin sözlərinə görə, Türkiyə Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək göstərir. Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıdır.

"İyul ayında Ermənistanın Azərbaycana hücumları ölkəmiz tərəfindən ən yüksək səviyyədə qınanıldı. Türkiyə Xarici İşlər Nazirliyi bununla bağlı verdiyi açıqlamada ölkənin bütün imkanları ilə Azərbaycanın yanında olacağını bəyan edib", - deyə səfir bildirib.

Diplomat vurğulayıb ki, Türkiyə-Azərbaycan tərəfdaşlığının, dostluğunun qapısı bölgədə sabitlik, sülh və firavanlıq istəyən hər kəsə açıqdır. "İki dövlət, bir millət" şüarını rəhbər tutaraq Azərbaycan və Türkiyənin mübarizlikləri ilə ortaq maraqlarını və təhlükəsizliklərini qoruyacaqlarını, beynəlxalq hüquqa zidd hərəkətlərə qarşı çıxacaqlarını hər kəs bilməlidir.

## Erməni əsgəri döyülüb



Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrinin birində yerləşdirilən bölmələrində xidmət edən daha bir hərbi qulluqçu əsgər yoldaşları tərəfindən vəhşicəsinə döyülüb.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, işğalçı ordunun Ağdərə yaşayış məntəqəsində yerləşdirilən hərbi hissəsinin əsgəri Tiqran Hovsepyan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Müxtəlif bədən xəsarətləri alan T.Hovsepyan tibb məntəqəsinə yerləşdirilib. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Türkiyə Qafqazda oyun qaydalarını dəyişir?



MƏTLƏB
Metlebsalahov@mail.ru

Nikol Paşinyan, bölgədə türk əsgərinin nəfəsini hiss etməyə başlayıb və elə təşvişə düşüb ki, arvadı Annanı da qoltuğuna vurub Qarabağa gəlib. Sanki, artıq bu dəfə hadisələrin tam başqa məcraya yön aldığını, Türkiyənin Qafqaza girmək üçün bu dəfə daha israrlı olduğunu məntiq qarışıq möhkəm qorxu ilə hiss etməyə başlayıb. Budur, Ermənistan əsrlərdir ki, tarixi atası rolunda çıxış edən Rusiyanın ayaqlarına sarılaraq, silah və hərbi dəstək dilənir. Qarabağı azərbaycanlıların yaddaşından sildirmək üçün yaradılan ATƏT deyilən axmaq bir təşkilatda həmsədr olan Rusiya, təkcə Tovuz döyüşlərindən dərhal sonra maşın karvanı dolu silah-sursatla Ermənistana "hədiyyə" yollayıb. Belə görünür ki, elə Moskvada da bölgədəki yeni dövrə "möhkəm hazırlaşırlar". Bu dəfə daha sakit və səssiz, heç kimi hədələyib "asıb-kəsmədən" hadisələrə yanaşır Rusiya.

Tarix boyu bu torpaqlarda daima domokl qılıncı kimi asılan Rusiya, yeni vəziyyət və oyun qaydaları ilə razılaşmağa məcburdur deyəsən. Moskva artıq əvvəlki kimi, yeni qılıncının kəsdiyi vaxtlarda olduğu kimi ona-buna meydan oxumaq halında olmadığını getdikcə daha yaxşı anlayır. Artıq əziz Vladimir Vladimiroviçin cəmi 5-10 il qabaqkı kimi Moskvada Angela Merkelə pis söyüş söymək, Nikolya Sarkozinin qalstukundan yapışıb onu təhqir etmək, Mixail Saakaşvilini qaranlıq zirzəmiyə salıb "haqq-hesab çəkmək" kimi imkanları yoxdur daha.

Düzdür, Rusiya nəhəngdir, hətta Xristofor Kolumbun kəşf etdiyi gündən bəri, ilk dəfə iki-üç il əvvəl əzəli rəqib olduğu ABŞ-dakı seçkilərə əl uzatmaq gücündə olan Moskva, bir çox Qərb dairələri üçün əsl "şimal ayısı" fobiyası, "xaxol canavarı" qiyafəsində görünür. Amma, Rusiya artıq bu görkəmində belə, cəmi 5-10 il əvvəlki kimi elə də qorxunc görünmür. Keçən ilin sonlarında ortaya çıxan, təbii epidemiyadan daha çox insan "zəkasının məhsulu" olan və dünya güclərinin ölümcül maraqlarına, "haqq-hesab" işinə hesablanan koronavirus məsələsi, həm də dünya siyasətində heç bir şeyin əvvəlki kimi olmayacağını ortaya qoydu. Xüsusilə, Türkiyə lideri Rəcəb Tayyip Ərdoğanın ilin əvvəlindən söylədiyi "Artıq heç nə əvvəlki kimi olmayacaq" ifadəsi də yeni dönəmin ilk işarəsi idi.

Məncə, Türkiyə lideri yeni dünya düzəni barədə səhih məlumatı olan iki-üç dünya liderindən biridir. Elə qardaş ölkənin həm Aralıq dənizində, həm də bizə olan mükəmməl dəstəyinə görə Qafqazlarda əzələ nümayişi düşünülmüş siyasətdir və çox güman ki, çoz uzaq zaman üçün hesablanıb. Artıq Türkiyə faktoru dünya siyasəti üçün həlledici amilə çevrilir.

Çünki rəsmi Ankara uzaq 2003-cü ildəki zəif NATO dövləti və ya Qərbin qapazaltısı durumunda olan dövlət deyil. İndi qərbdəkilərin və Rusiyanın qarşısında, olduqca güclü hərbi sənayeyə sahib olan, ən son silah texnologiyasına malik, ABŞ sanksiyalarının və dollar hədəsinin çökdürə bilməyəcəyi davamlı iqtisadiyyat quran bir güclü Türkiyə dayanıb. Sözsüz ki, son bir neçə ayda Aralıq dənizində Yunanıstanı qızışdırıb ortaya atanlar da, Ermənistanı Azərbaycan əleyhinə tarixi köpək missiyası kimi təxribata sürükləyənlər də sadaladığım faktlardan xəbərdardırlar.

Elə məhz yuxarıda sadaladığım faktlar da həm Qərb dairələrini, həm də Rusiyanı bölgədə və dünya siyasətində "dəmir gücə" çevrilən Türkiyə əleyhinə tədbirlər görməyə sövq edir.

Həm Moskvada, həm də Qərb paytaxtlarında Türkiyənin getdikcə güclənən mövqelərinin təcili zəifləndirilməsi barədə planlar qurulur. Şərqi Aralıq dənizində Yunanıstana və arxasında duran güclərə qarşı əzmkar mövqe sərgiləyən rəsmi Ankara, Qafqazdakı mühüm iqtisadi layihələrinə Azərbaycana hücum və təxribatlar təşkil etməklə manea yaradanlara güzəşt etməyəcəyini açıq şəkildə ortaya qoydu.

Hər zaman qardaş Azərbaycana davamlı dəstək göstərən Türkiyə, artıq Qafqazda təkcə iqtisadi deyil, artıq hərbi layihələrini də realaşdırmaqla bu bölgədə tarixi missiyasına qayıdır, bu faktdır və inkarı mənasızdır. Baş verənlərdən aydın görünür ki, indiyə qədər Azərbaycana siyasi və diplomatik dəstək göstərən qardaş ölkə, artıq bölgədəki dəstəyini hərbi şəkildə göstərmək niyyətindədir. Bu niyyəti Moskvada da ciddi şəkildə izləyirlər və son Tovuz döyüşlərində Türkiyənin rəsmi Bakıya olan güclü siyasi dəstəyi, üstəlik döyüşlərdən dərhal sonra Türkiyə ordusunun Azərbaycan ordusu ilə birgə hərbi təlimlər keçirməsi də, Qafqazda Türkiyə rüzgarının bundan sonra daha sərt "əsəcəyindən" xəbər verir. Rusiyanın bölgədə əsrlər boyu davam edən yanlış siyasəti artıq adekvat reaksiyaya səbəb olub. İndi heç kəs Moskvanın bu yanlış siyasətini "malalamaq", onun qorxusundan səsini kəsmək fikrində deyil. Həttda Rusiyanın ayrılmaz slavyan qardaşı Belarus belə.!

MDB-dəki ölkələrin əksəriyyəti Moskvanın ədalətsiz və aşağılayıcı siyasətindən o dərəcədə boğaza yığılıblar ki, artıq baş verənlərin Rusiya üçün ən arzuolunmaz ssenariyə yol açacağı qaçılmazdır. V.Putin, içki düşkünü olan Boris Yeltsinin zamanındakı dağılan Rusiyanın "ipini" yığıb, rəsmi Moskvanı yenidən dünya siyasətindəki mövqeyinə qaytara bildisə də, əvəzində ölkə korrupsiya və irimiqyaslı cinayətkar məmur qruplaşmalarının girovuna çevrildi, bu azmış kimi bacarıqsız regional siyasət üzündən Rusiya həttda ona doğma olan slavyan ölkələri ilə düşmən durumuna gəldi. Qafqazda isə, tarix boyu Ermənistandan "kəbinsiz qadın" rolunda istifadə edən Kreml, bu yanlış siyasətini bu gün də davam etdirərək, özünə qarşı qıcıq yaradır.

Məncə əziz Vladimir Vladimiroviç hələ də məhz saymamazlığın, özünü həmidan yüsksəkdə görməyin eyforiyasındadır və bunun əvəzini gerçəkdən ağır da ödəyə bilər. Heç şübhəsiz ki, dünya siyasətində, xüsusilə Qafqazda Rusiya amili ölümcül kəsərə sahibdir. Bu, sadəcə danılması mümkün olmayan faktdır. Amma onu da etiraf etmək lazımdır ki, bu gün elə bir tarixi şərait yaranıb ki, artıq Türkiyənin də Qafqazda əsas oyunçuya çevrilməsi qaçılmazdır. Düzdür, Moskva daima buraların "domokl qılıncı" olaraq qalacaq, amma o da bir faktdır ki, indi bu bölgədə güclü dövlətlərin yeni mübarizəsi, "əl dəyişməsi", yaxud "güclərin toqquşması" başlayıb. Türkiyənin Qafqazda hansı addımlar atacağını, Rusiya ilə necə "dil tapacağını" isə, zaman göstərəcək...

# Bu gün regionda əldə edilən uğurlar Türkiyənin və Azərbaycanın birgə səyləridir

***Azərbaycan və Türkiyənin dostluq və qardaşlıq tellərinin möhkəm təməllərə söykənməsi özünü bir sıra tarixi aspektlərdən təsdiq etməkdədir. Məhz bu sarsılmaz və əbədi bağların hər birində şərəf, qürur, əzm, iradə və qətiyyətə xas olan mübarizlik tandemləri dayanır. Ümumiyyətlə, əgər biz Azərbaycan və Türkiyə münasibətlərinin ən möhkəm təməllərə söykəndiyini vurğulayırıqsa, əgər bir millət iki dövlət olaraq, regionda və dünyada baş verən proseslərə eyni çərçivədən yanaşırıqsa, beynəlxalq diplomatiya və hərbi siyasətlərimizə dəstək göstəririksə və belə bir dəstəyin digər başqa dövlətlər arasında olmadığını faktiki olaraq görürüksə, demək ki, bu bir sarsılmaz qardaşlıq amilidir.***





***Məhərrəm ƏLİYEV,***
***Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik***

## Türkiyədə azərbaycanlı, Azərbaycanda isə türk şəhidlərimiz uyuyur

Türk xalqının böyük oğlu Mustafa Kamal Atatürk “Azərbaycanın kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir” kəlamını ifadə edərkən, bu kəlamın kökündə qardaşlığın ən bariz nümunəsinin özünü nə qədər ali məqamda izhar etdirdiyinin bir daha şahidləri olarıq. Bəli, məhz bu kəlamın nəticəsidir ki, Çanaqqala zəfərinin (1915-16) qazanılmasında minlərlə soydaşımızın da payı var və həmin döyüşlərdə qəhrəmancasına döyüşmüş şəhidlərimiz Çanaqqaladakı qardaşlıq məzarlarında uyumaqdadırlar. Eləcə də, Azərbaycanın 1918-ci ildə üzləşdiyi siyasi böhran zamanı xalqımızın soyqırımına və ərazilərinin işğal təhlükəsi ilə qarşıqarşıya qaldığı vaxtlarda Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun xilaskarlıq missiyasını həyata keçirməsini, azərbaycanlı qardaş və bacılarını düşmən caynağından qurtarmasını xatırlatmaqla həmin tarixi həqiqətləri şərəflə ana bilərik. Bu gün Azərbaycan torpağında da minlərlə türk qardaşlarımız şəhidlik şərbəti içərək uyumaqdadırlar.

Bu bir silinməyəcək taledir ki, Türkiyədə azərbaycanlı, Azərbaycanda isə türk şəhidlərimiz uyuyur!

Belə bir məqamda, Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyev öz çıxışlarının birində bu gün dillər əzbəri olan tarixi kəlamını səsləndirmişdir - BİR MİLLƏT, İKİ DÖVLƏT!

## Ulu Öndər Heydər Əliyev: “Biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”



Bu məfhum xalqlarımızın qanına hoparaq özünü bütün məqamlarda, bütün cəhətlərdə əks etdirməkdədir. Hələ Ulu Öndərimiz Naxçıvan Muxtar Respublikanın Ali Məclisinə Sədrlik etdiyi vaxtlarda, yəni Muxtar Respublikanın blokada şəraitində olduğu zaman, Naxçıvan əhalisinin yağı düşmənlə ağır döyüşlərdə iştirak etdiyi anlarda Türkiyə ilə sərhəddə “Ümid” körpüsünün açılmasına, bunun ardınca isə sosial-iqtisadi, strateji və hərbi-müdafiə dəstəyinin əldə edilməsinə nail oldu. Bu kimi həssas bir məsələnin həmin dövrdə nə qədər çətin bir proses olduğunu isə yəqin ki, çoxları bilir. Məhz Türkiyə dövləti belə bir çətin anda öz qucağını Azərbaycana, Naxçıvana açdı və növbəti dəfə bariz qardaşlıq nümunəsini ortaya qoydu. Çünki qeyd etdiyimiz kimi, həmin qardaşlıq nümunəsi tarixlərə bağlı olan bir şərəf salnaməsinin məntiqi davamı idi.

Dahi Heydər Əliyev dühası Türkiyəyə olan rəğbətini bu ifadələri ilə də tarixə yazmışdı:”Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdili xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”.

## Azərbaycan öz yanında Türkiyəni, Türkiyə isə öz yanında Azərbaycanı çiyin-çiyinə olaraq görməkdədir

Bəli, bu gün də həmin nümunə uğurla davam etdirilir, Ulu Öndərimizin tövsiyələri və arzuları iki qardaş ölkə tərəfindən uğurla reallaşdırılır və hər anda özünü ən açıq şəkildə dünya birliyinə əxz etdirir. Belə ki, bu gün ölkələrimiz arasındakı birlik və bərabərlik

# Bu gün regionda əldə edilən uğurlar Türkiyənin və Azərbaycanın birgə səyləridir

dünyanın başqa heç bir ölkələri, dövlətləri arasında mövcud deyil. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Cümhuriyyətinin dövlət başçısı cənab Rəcəb Tayyib Ərdoğanın timsalında qazanılan sosial, iqtisadi, hərbi-strateji və s. sahələrdəki nailiyyətlərin hər birinin kökündə tarixi bağlılıq reallığı, tarixi qardaşlıq gerçəkliyi dayanır. Azərbaycan öz yanında Türkiyəni, Türkiyə isə öz yanında Azərbaycanı çiyin-çiyinə olaraq görməkdədir. Bu gün dünyanın siyasi təlatümlərlə üzləşdiyi, toqquşan maraqların artdığı bir vaxtlarında belə bir qardaşlıq amili öz vacibliyini daha qabarıq fonda sərgiləməkdədir.



## Türkiyənin dövlət və hakimiyyət nümayəndələrindən tutmuş sıravi vətəndaşlarına qədər hər kəs Prezident İlham Əliyev cənablarının qətiyyətli bəyanatlarını alqışladı

Haşiyə çıxaraq, bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev cənablarının Yaponiyanın və Yunanıstanın ölkəmizə təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul etdiyi vaxt irəli sürdüyü mühüm fikirlərini bir daha xatırlatmaq yerinə düşərdi. Bildiyimiz kimi, məhz yunan səfirinin etimadnaməsini qəbul etdiyi zaman dövlətimizin başçısı ali diplomatik dəyərləri ilə qardaş Türkiyənin mövqeyinə birmənalı dəstəyini ifadə etdi. O da bəllidir ki, Türkiyə dövlətinin Şərqi Aralıq dənizi akvatoriyasında tədqiqat aparmasından narahat olduğunu bəyan edən ölkələrdən biri də Yunanıstandır. Sirr deyil ki, Türkiyə dövləti yalnız yataqlar məsələsində deyil, eyni zamanda Şimali Kiprdə yaşayan türklərin də qarantı olaraq çıxış edir. Belə olan halda, yəni bu kimi bənzər məsələlərdə qardaş ölkə ilə təhdid dilində danışmağa çalışanların cavabının Azərbaycan Prezidenti tərəfindən yüksək diplomatik tərzlə verilməsi söz yox ki, türk qardaşlarımızla birgə hər birimizi - deyərdim ki, böyük türk dünyasını qürurlandırdı. Əbəs deyil ki, Türkiyənin dövlət və hakimiyyət nümayəndələrindən tutmuş sıravi vətəndaşlarına qədər hər kəs Prezident İlham Əliyev cənablarının qətiyyətli bəyanatlarını alqışladı, bunu növbəti sarsılmaz qardaşlıq nümunəsi olaraq dəyərləndirdi.

Bu məqamda haşiyənin davamı olaraq növbəti xatırlatmanı da etmək istərdim. Əslində Azərbaycanın Türkiyəyə olan bu kimi dəstəkləri daha əvvəllər də olub. Bir neçə il əvvəl - Türkiyədə FETÖ terror təşkilatı tərəfindən dövlət çevrilişinə cəhd edilən zaman ölkəmizin başçısı dərhal bəyanat verərək, Azərbaycan dövlətinin və xalqının bütün mənalarda Türkiyə dövlətinin, hakimiyyətinin və xalqının yanında olduğunu qətiyyətlə vurğuladı. Bu anda xüsusilə toxunmaq istərdim ki, sözügedən faktor yalnız iki strateji və müttəfiq ölkələr arasında əldə edilmiş rəsmi razılaşmaların göstəricisi deyil, bu eyni zamanda, iki sarsılmaz (!) qardaşlığın heç vaxt dəyişilməyəcək, əbədi qalacaq bariz nümunəsidir.

Prezident İlham Əliyev Türkiyə rəhbərliyinin toplantıda iştirak etməməsindən sui-istifadə edən Ermənistan rəhbərliyini sözün əsl mənasında yerində oturtmuşdu Bu mənada, cənab Ali Baş Komandanımız İlham Əliyev ən yüksək diplomatiya məktəbinin ali nümunəsini, bənzərsiz peşəkarlığını göstərərək, Azərbaycanın Türkiyə dövlətinin yanında olduğunu bəyan etdi. O cümlədən, Türkiyəyə qarşı çıxan tərəflərə sərt bir mesaj ötürdü ki, bu məsələdə ədalətli mövqe Türkiyənindir.

Yeri gəlmişkən, bir neçə il öncə cənab Prezident İlham Əliyev beynəlxalq sammitlərin birində Türkiyə rəhbərliyinin həmin toplantıda iştirak etməməsindən sui-istifadə edən Ermənistan rəhbərliyini də sözün əsl mənasında yerində oturtmuşdu. Dövlətimizin başçısı tarixi "Əgər Türkiyə burada yoxdursa, mən varam!" bəyanatını səsləndirməklə qardaş ölkəyə qarşı irəli sürülən ittihamlara qətiyyətli cavab verməklə, əslində dünya miqyaslı lider olduğunu da sübut etmişdir.

## Cənab Rəcəb Tayyib Ərdoğanın bəyanatı yalnız Ermənistana tərəf yönəlməmişdi...

Eləcə də, ötən ay Azərbaycan xalqı Türkiyə dövlətinin növbəti qardaşlıq mücəssəməsinin şahidi oldu. İşğalçı Ermənistanın Tovuz rayonu ilə həmsərhəd ərazilərindəki təxribatçılıq əməllərinin ardınca, dərhal dövlət və ali hakimiyyət səviyyəsində bəyanatlar səsləndirən Türkiyə bu dəfə açıq-aydın olaraq tərəf (!) olduğunu vurğuladı. Cənab Rəcəb Tayyib Ərdoğanın bəyanatı yalnız Ermənistana tərəf yönəlməmişdi. Çünki söz yox ki, bu gün Ermənistanın işğalçılıq mövqeyini gizli, ya da açıq qaydada dəstəkləyən ölkələr də bu bəyanatlardan sarsıldılar. Artıq sübut olundu ki, heç bir düşmən münasibəti nümayiş etdirən qüvvə nə Azərbaycanı, nə də Türkiyəni ayrı-ayrılıqda görməyəcək!



Rəsmi Bakının Ankara ilə eyni mövqeləri bölüşməsi bizi istəməyən qüvvələri nəinki narahat edir, hətta ciddi şəkildə təlaşlandırır

Həmçinin, bu məqamda da qeyd etmək yerinə düşərdi ki, iki qardaş dövlət arasındakı hərbi strateji müttəfiqlik özünü bütün sferalarda təsdiq edib.

İllər əvvəl "Türk ulduzları" ilə "Azərbaycan şahinləri" Bakı səmasında bəzi qüvvələrə bir mesaj göndərdilər ki, artıq iki ölkə bir yumruqda birləşib və bu vahidliyi kimsə sarsıda bilməz. Ondan sonrakı illərdə ölkələrimiz arasında dəfələrlə birgə hərbi təlimlər baş tutdu. Xüsusən "Azadlıq Meydanı"nda keçirilən hərbi paradda azərbaycanlı və türk əsgərlərin eyni sırada hərbi yürüşlə keçmələri, parad zamanı iki ölkə Ali Baş Komandanlarının irəli sürdükləri nitqləri Azərbaycan-Türkiyə müttəfiqliyinin ən bariz təcəssümlərindən biri kimi ortaq tarixlərimizə yazıldı.

Artıq dünyanın siyasi, iqtisadi düzəni dəyişir və xüsusilə, Qafqaz, Şərqi Aralıq, Yaxın Şərq və s. bölgələrdə yeni söz sahibləri meydana gəlib. Belə söz sahiblərindən biri də rəsmi Ankaradır. Bu xüsusda rəsmi Bakının da Ankara ilə eyni mövqeləri bölüşməsi söz yox ki, bizi istəməyən qüvvələri nəinki narahat edir, hətta ciddi şəkildə təlaşlandırır. Türkiyə ilə Azərbaycan Silahlı Qüvvələrinin ikitərəfli və irimiqyaslı, habelə döyüş şəraitinə ən yaxın olan hərbi təlimləri baş tutdu, bu təlimlər istər Bakıda, istər digər rayon və şəhərlərimizdə, habelə Naxçıvanda keçirildi. Bu günlərdə də Naxçıvanda yüksək döyüş qabiliyyətlərinə əsaslanan hərbi təlimlər keçirilməkdədir ki, sözügedən reallıq düşməni həqiqətən də sarsıdır və qarşılaşacağı məğlubiyyətinin acısını indidən yaşadır.

## Düşmənin heç bir cəhdləri istədikləri nəticələri verməyəcək və layiqli, birdəfəlik cavabını alaraq rüsvayçı məğlubiyyətə uğrayacaq

Bu gün Ermənistan rəhbərliyi müəyyən süni görüntülərlə gah işğal altındakı Qarabağa səfərlər edir, gah "Qadınlar sülh naminə" adı altında siyasi oyunbazlıq göstərib, sonradan silahı Azərbaycanın mülki vətəndaşlarına doğru yönəldir, şəkillər çəkdirib Ermənistan mətbuatında və sosial şəbəkələrdə yayır gah da digər uğursuz cəhdlər edirlər. Əslində isə onlar ilk növbədə ölkələrində artan və qiyama doğru inkişaf edən xalqın narazılığını pərdələmək üçün cəhdlər göstərirlər. Ancaq fakt budur ki, düşmənin heç bir cəhdləri istədikləri nəticələri verməyəcək və layiqli və birdəfəlik cavabını alaraq rüsvayçı məğlubiyyətə uğrayacaq. Bax, bu həqiqət Ermənistanı ciddi narahat qalmaqda davam edir.

Ancaq o da məlumdur ki, Türkiyənin regional gücdən beynəlxalq gücə çevrilməsi faktoru da Ermənistana dəstək göstərən bəzi qüvvələrin maraqlarına cavab vermir. Söz yox ki, bu həqiqətləri biz həm hərbi, həm də digər cəhətlərdən təhlil edir, hansı məcrada olduğunu yaxşı bilirik və Azərbaycan-Türkiyə qardaşlığı timsalında hər zaman istənilən təhdidə layiqli, sərt, qətiyyətli, məğlubedici cavab verməyə hazırıq. Artıq belə bir həqiqət özünü kifayət qədər və danılmaz isbatları ilə təsdiq edib - bu gün regionda əldə edilən uğurlar bilavasitə Türkiyənin və Azərbaycanın birgə səyləridir.

# Ölkəmizdə təhsil sahəsində həyata keçirilən səmərəli tədbirlər qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir

*Bakı Ali Neft Məktəbinin rektoru, YAP Siyasi Şurasının üzvü Elmar Qasımovun yap.org.az-a müsahibəsi*

***- Elmar müəllim, söhbətimizə əvvəlcə günümüzün aktual və qlobal xarakterli problemi olan koronavirus pandemiyasına qarşı mübarizə məsələsi ilə əlaqədar sualla başlamaq istərdik. Bu istiqamətdə dünya təcrübəsi və Azərbaycan nümunəsi nəyi ifadə edir, hazırkı pandemiya şəraitinin əks etdirdiyi reallıqlar nədən ibarətdir?***



- Həqiqətən də, koronavirus pandemiyasına qarşı mübarizə milli, regional və qlobal səviyyədə ən aktual məsələlərdən biridir desək, heç də yanılmarıq. Çünki artıq müəyyən müddətdir ki, bəşəriyyət yeni növ koronavirus (COVID-19) infeksiyası adlandırılan "gözəgörünməz düşmən"lə faktiki müharibə vəziyyətindədir. Pandemiya şəraitinin ümumi mənzərəsi vəziyyətin heç də qənaətbəxş olmadığını göstərir, başqa sözlə, qlobal miqyasda kifayət qədər mürəkkəb situasiya hökm sürür. Biz bir çox inkişaf etmiş ölkənin ciddi səhiyyə problemləri və sosial-iqtisadi tənəzzüllə qarşılaşdığını görürük. Həm milli, həm də beynəlxalq təhlükəsizlik məsələsi olan, ölkələr səviyyəsində və qlobal müstəvidə zəruri resursların mübarizəyə səfərbər edildiyi pandemiya şəraiti, eyni zamanda, dövlətlərin milli gücünü və xalqların spesifik xüsusiyyətlərini bir daha nümayiş etdirdi. Bu kontekstdə Azərbaycan təcrübəsinə nəzər saldıqda müsbət, mütərəqqi və təqdirəlayiq nümunənin şahidi oluruq. Təsadüfi deyil ki, Azərbaycanın pandemiya ilə mübarizə təcrübəsi həm ölkə daxilində, həm də beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış minnətdarlıq məktublarında vətəndaşlar dövlətimizin pandemiya ilə mübarizəsini, həm əhalinin sağlamlığının qorunması, həm də sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü və zəruri təxirəsalınmaz tədbirlərin xüsusi əhəmiyyətə malik olduğunu bildirirlər. Eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatının Baş katibinin Prezident İlham Əliyevə göndərdiyi məktubda Azərbaycanın COVID-19 ilə mübarizə təcrübəsi, milli resurslardan səmərəli istifadə olunması təqdir olunur. Bu, həm də onunla əlaqədardır ki, Azərbaycan pandemiyanın ilk günlərindən ÜST ilə sıx əməkdaşlıq edir və qurumun tövsiyələrini yerinə yetirir. Bu səbəbdən ÜST Azərbaycanı pandemiyaya qarşı nümunəvi mübarizə aparan ölkə kimi qiymətləndirib. Bütövlükdə isə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir.

Çox vacib bir məqamı da qeyd etmək istəyirəm. Bu, pandemiya şəraitində həyat tərzi və müxtəlif sahələrdə fəaliyyət formasının çox ciddi dəyişikliklərə məruz qalmasıdır. Profilaktik və təhlükəsizlik - qorunma məqsədilə bir çox qaydalara riayət olunması zəruri hesab edilir ki, bunlardan biri təmas etməmək və sosial məsafə tələbinə əməl etməkdir. Bu səbəbdən ayrı-ayrı sahələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından yararlanmaqla onlayn formatda fəaliyyət qurulur. Bu sahələrdən biri təhsil sektorudur. İstər dərslərin, imtahanların videoformatda keçirilməsi, istərsə də zəruri texnoloji vasitələrin tədris prosesinə cəlb olunması bu kontekstdə mühüm əhəmiyyətə malikdir. Elə Bakı Ali Neft Məktəbi də müasir texniki - texnoloji imkanlardan yararlanmaqla tədris prosesinin sənərəliliyini təmin edir.

***- Yeri gəlmişkən, yeni il dərs ilinin başlanacağı tarix ərəfəsindəyik. Ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz və gözləntiləriniz nədir?***

- Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, təhsil hər bir millətin gələcəyidir. Prezident İlham Əliyev vurğulayıb ki, hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır.

Həqiqətən də, təhsil sektoru strateji əhəmiyyətə malik olan bir sahədir. Bunu həm dünya miqyasında ayrı-ayrı dövlətlərin, həm də Azərbaycanın təcrübəsi aydın şəkildə nümayiş etdirir. Bu istiqamətdə də ölkəmizin nümunəsi qabaqcı model kimi səciyyələndirilir. Bunu şərtləndirən ən mühüm amil dövlətin təhsilin inkişafına göstərdiyi davamlı diqqətdir. Təsadüfi deyil ki, son illər ərzində Azərbaycanda davamlı dövlət dəstəyi sayəsində təhsilin maddi-texniki bazası möhkəmləndirilib, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib. Bu dövrdə respublikamızda yüksək səviyyəli təhsil infrastrukturunun yaradılmasına dövlət tərəfindən böyük həcmlərdə maliyyə vəsaiti yönəldilib. Eyni zamanda, ölkəmizdə təhsil infrastrukturunun yenilənməsinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir. Fond tərəfindən reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa olunub və yaxud əsaslı şəkildə yenidən qurulub. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompyuter otaqları, emalatxanalar, idman zalları və geniş meydançalar, eləcə də avtonom istilik sistemi yaradılıb. Ulu Öndərimizin adını daşıyan Fond həmçinin "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramları çərçivəsində də ölkəmizdə təhsil infrastrukturunun müasir standartlar səviyyəsində yenidən qurulmasına özünün sanballı töhfələrini verir.

Bütövlükdə, yeni tədris ilinə yüksək infrastruktur təminatı və təhsilin davamlı inkişafı şəraitində başlayırıq. Son günlər bir sıra ali məktəblərin yeni korpuslarının açılışını da müşahidə edirik ki, bu da bəhs olunan sahədə qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün olduqca böyük önəm kəsb edir.

***- Elmar müəllim, təhsilin inkişafı ilə paralel olaraq ölkəmizdə qara qızılın intellektual kapitala çevrilməsi və gənclərin milli ruhda tərbiyəsi də daim diqqət mərkəzindədir. Bu barədə nə deyə bilərsiniz?***

- Bəli, Azərbaycanda təhsilin inkişafı kontekstində müəyyənləşdirilmiş başlıca strateji vəzifələr sırasında bu iki istiqamət, yəni qara qızılın intellektual kapitala çevrilməsi və gənclərin milli ruhda tərbiyəsi xüsusi yer tutur. Bununla bağlı həyata keçirilən məqsədyönlü tədbirlər isə ardıcıl xarakter daşıyır, sistemlidir və konseptual əsaslara söykənir. Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasının yüksək səviyyədə təmin olunması, həmçinin. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" müvəffəqiyyətlə tamamlanması, yeni "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın qəbul olunması və hazırda bu proqramın da ardıcıl olaraq yerinə yetirilməsi bu baxımdan xüsusi vurğulanmalıdır.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi də xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin "Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır" fikri bu istiqamətdə həyata keçirilən siyasətin əsaslarını və mahiyyətini daha yaxşı anlamağa imkan verir. Ümumiyyətlə, sevindirici haldır ki, Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərin daşıyıcısı kimi ölkəmizin inkişafında, milli həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır. Ölkə gəncləri, həmçinin yüksək vətənpərvərlik ruhuna malikdir və həmrəylik nümayiş etdirməyi bacarır. Biz bunu iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hərbi təxribatı zamanı baş verən hadisələrin fonunda bir daha müşahidə etdik. Azərbaycan cəmiyyəti, o cümlədən gənclərimiz öz dövlətinə, Ali Baş Komandanına və ordumuza qətiyyətli dəstək ifadə etdilər, torpaqlarımızın azad olunması uğrunda döyüşə hazır olduqlarını birmənalı şəkildə bildirdilər. Eyni zamanda, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin çağırışına qoşulan gənclərimiz könüllü olaraq cəbhəyə getmək və düşmənə qarşı vuruşmaq istəklərini bildirdilər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müvafiq qaydada müraciət etdilər. Bu, təbii ki, qürurverici hal - təqdirəlayiq nümunədir.

***- Yeri gəlmişkən, siz Azərbaycan cəmiyyətinin məlum hadisələr zamanı dövlətə qətiyyətli dəstəyindən bəhs etdiniz. Bu kontekstdə siyasi partiyaların mövqeyini xüsusi vurğulamaq olar. Bununla bağlı nə düşünürsünüz?***

- Bilirsiniz ki, ölkəmizdə davamlı inkişafa xidmət edən kompleks islahatlar həyata keçirilir. Ardıcıl xarakter daşıyan institusional və struktur islahatlarının tərkib hissəsi kimi Prezident Administrasiyasında yaradılan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin fəaliyyətə başlamasından dərhal sonra hakimiyyət tərəfindən parlamentdə təmsil olunan və olunmayan siyasi qüvvələrlə dialoq prosesinə start verilməsi, paralel olaraq yeni siyasi partiyaların qeydiyyatdan keçməsi siyasi sistemdə plüralizmin güclənməsini, yeni siyasi konfiqurasiyanın formalaşmasını və ümummilli həmrəyliyin möhkəmlənməsini şərtləndirib. Ümumiyyətlə, Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin Azərbaycanda fəaliyyət göstərək əksər partiya sədrləri ilə görüşlər keçirməsi siyasi proqressə aparan mühüm və zəruri təşəbbüs kimi xüsusi əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, artıq iqtidar və müxalifət arasında yüksək səviyyədə dialoqun baş tutmasının şahidiyik. Ümumiyyətlə, belə görüşlərin, davamlı və səmərəli dialoq prosesinin real nəticələrini milli məsələlərdə həmrəylik nümayiş etdirilməsi və vahid mövqedən çıxış edilməsi kontekstində görürük. Bu barədə konkret bir nümunə diqqətə çatdırmaq istəyirəm. Bilirsiniz ki, məlum hərbi təxribatların başladığı ilk günlərdə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar tərəfindən "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair" bəyanatı imzalandı. 43 siyasi partiyanın imzaladığı bəyanatda "Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, Onun ətrafında sıx birləşdiyimizi bəyan edirik",-deyə bildirilmişdi. Eyni zamanda, diqqətə çatdırılmışdı ki, möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda Onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik". Ardınca daha 3 partiya Azərbaycan dövlətinə, Ali Baş Komandanımıza və milli ordumuza dəstək xarakterli bəyanatlarla çıxış etdilər. Bu, hər şeydən əvvəl, Prezident İlham Əliyevin torpaqlarımızın işğaldan azad olunması istiqamətində həyata keçirdiyi siyasətə birmənalı dəstəkdir, düşmənə qarşı ümumi mövqedir. Eyni zamanda, yuxarıda qeyd etdiyimiz kimi, əlverişli siyasi dialoq mühitinin real göstəricisidir.

Amma bütün bunlarla yanaşı, təəssüfləndirici məqamlar da var. Əfsuslar olsun ki, AXCP bəhs olunan bəyanata qoşulmayaraq tarixi məsuliyyətdən yayındı, antimilli mövqedən çıxış etdi, dövlətə və ordumuza dəstək nümayiş etdirmədi. Bu isə Ermənistanın maraqlarını və mövqeyini dəstəkləmək, düşmənlə sinxron hərəkət etməkdir.

Bütövlükdə, Azərbaycan cəmiyyətinin, o cümlədən siyasi proseslərdə fəal iştirak edən qüvvələrin milli həmrəylik nümayiş etdirərək dövlətə dəstək nümayiş etdirmələri Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara əsaslanan siyasətin həyata keçirilməsinin real nəticəsidir.

## Növbəti 4 il istehlak qiymətləri indeksi orta hesabla 2,8 faiz artacaq

Növbəti dörd il (2021-2024-cü illər) ərzində Azərbaycanda istehlak qiymətləri indeksi orta hesabla 2,8% artacağı proqnozlaşdırılır. SİA xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin Azərbaycanın 2021-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasına istinadən xəbər verir. Proqnozlara əsasən, ölkədə 2021-ci ildə inflyasiya 3%, 2022-ci ildə - 2,8%, 2023-cü ildə - 2,8%, 2024-cü ildə isə 2,7% təşkil edəcək.

# Ölkə vətəndaşlarının sosial rifahının yüksəlməsinə xidmət edən siyasət

**Prezident İlham Əliyev "Mən hər bir azərbaycanlının Prezidenti olacam" ifadəsini işlətmişdi, bu gün isə, hər bir kəs "İlham Əliyev mənim Prezidentimdir" deyir**

***Bu nədən irəli gəlir? Əlbəttə ki, bu, ölkə Prezidentinin əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində gördüyü işlərdən, imzaladığı fərman və sərəncamlar, bütövlükdə dövlətimizin yeritdiyi siyasətin mərkəzində insan amilinin, Azərbaycan vətəndaşına diqqət və qayğının olmasından irəli gəlir. Ən çətin anlarda Azərbaycan Prezidenti xalqının yanında olub.***

Dünyada koronavirus pandemiyasının tüğyan etdiyi ilk gündən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus - COVID-19 pandemiyasının geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik, təxirəsalınmaz və zəruri qabaqlayıcı tədbirlər Azərbaycan modelini nümunə olaraq bir daha ortaya qoymuş oldu. Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Avqustun 31-də Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalın açılışında tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşü zamanı dövlət başçısı karantin pandemiyası dövründə vəziyyətə uyğun şəkildə həyata keçirilən işlərdən danışaraq bildirdi ki, qısa müddət ərzində normal həyata qayıdılıb. Dövlət başçısı çıxışı zamanı, həmçinin vurğuladı ki, Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımların nəticəsində öz səmərəsini verməsinə arxayınlaşmaq olmaz, vətəndaşlarımız məsuliyyətli olmağa unutmamalıdırlar: "Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da görürük, hiss edirik və bu, real nəticələrdə öz əksini tapır, belə olan halda hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir".

Baxın, karantinin daha az ziyanla tətbiqi, eləcə də vətəndaşların evdə qalarkən bütün sosial xidmətlərlə təmin olunması dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəzarəti və qayğısı ilə həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ən çətin günlərdə dövlət-vətəndaş həmrəyliyinə ən böyük töhfəni vermiş oldu. Dövlətimizin başçısı hər bir vətəndaşın Prezidenti olduğunu bir daha sübut etdi.



Belə olan halda hər bir vətəndaş mövcud dinamikanı qoruyub saxlamaqda məsuliyyətli olmalıdır. Çünki məsuliyyətsizlik, biganəlik, sanitar qaydalara əməl etməmə yoluxma sayının yenidən artmasına səbəb ola bilər. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, aparılan bütün sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və Operativ Qərargah tərəfindən karantin qaydalarında yumşalmalar vətəndaşlarımızı arxayınlaşdırmamalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl edilməli, məsuliyyətsiz insanlara qarşı ictimai qınaq olmalıdır. Ölkə Prezidenti çıxışlarında da bildirib ki, dövlət nə lazımdırsa, onu edir: "Dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil. Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik", -deyən dövlət başçısı insanların bu məsuliyyəti dərk etmələrini deyib.

### "Qanun hər kəs üçün qanundur, heç kim qanundan üstün ola bilməz"

Lakin təəssüf doğuran odur ki, bütün bu uğurlu addımlardan və əldə olunan nailiyyətlərdən sonra hələ də məsuliyyətini itirmiş insanların karantin qaydaları pozması hallarının aşkarlandığının şahidi oluruq. Dövlət başçısı çıxışlarında da dəfələrlə hamını qanuna tabe olmağı tələb edərək bildirib ki, qanunu pozanlara qarşı heç bir güzəşt edilməyəcək. Prezident İlham Əliyev "qanun hər kəs üçün qanundur, heç kim qanundan üstün ola bilməz" fikrini qeyd edərək karantin rejiminin qaydalarına əməl etməyin hər bir vətəndaşın borcu olduğunu, vəzifəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəs qanun qarşısında eyni məsuliyyətə malik olduğunu bildirib. Cənab Prezidentin çıxışında söylədiyi "Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram" söyləməsi hər bir Azərbaycan vətəndaşını daha məsuliyyətli omağa səsləyir. Azərbaycan vətəndaşları bilməlidirlər ki, milli birlik və yüksək məsuliyyət karantin dövrünün əsas tələbidir. Çox acınacaqlı haldır ki, dəfələrlə dövlət başçısının özü belə bu məsələdə vətəndaşları məsuliyyətə dəvət etməsinə, tibbi maska taxaraq nümunə olmasına baxmayaraq, bəzi məsuliyyətsiz vətəndaşlarımız, xüsusilə də bəzi məmurlarımız cəmiyyətin sağlamlığını düşünmədən qanunları pozaraq təhlükə yaradırlar. Dövlət başçısı verilən tapşırıqlara məsuliyyətlə əməl etmədiyi halda cəza tədbirləri tətbiq olunduğunu da bildirib.

Bəli, Azərbaycan dövləti bütün sahələrdə, o cümlədən sosial sahədə də öz sözünü deyir. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi "Dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü,***
***"Modern ailə və inkişaf " İctimai Birliyinin sədri***

## Ali məktəblərə tələbə yerləşdirilməsinin vaxtı açıqlandı



Ali məktəblərə tələbə yerləşdirilməsi prosesinə sentyabrın 20-dən sonra başlanacaq. SİA-nın məlumatına görə, bunu dünən keçirdiyi mətbuat konfransında Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, ixtisas seçimi sentyabrın 10-dan 20-dək aparılacaq: "Sentyabrın 20-dən sonra ümumi yerləşdirməni apara biləcəyik. Bundan sonra qeydiyyat mərhələsi başlayacaq".

## "Azərbaycan başqa dövlətlərin qibtə edəcəyi dərəcədə irəliləyə bilib"



"Azərbaycan, ümumiyyətlə, beynəxalq dövlətlərarası təşkilatlarda iştirakını bir qayda olaraq, onunla şərtləndirir ki, bu iştirak həm dövlət olaraq Azərbaycana və xalqına faydalı olsun. Yəni burada dövlətimizin və xalqımızın milli maraq və mənafeləri üstün tutulsun, bizə heç bir zərəri olmasın. İkinci bir tərəfdən də o təşkilatlara üzv olmaqla qlobal proseslərin, problemlərin həllinə töhfə verilmiş olar." Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Siyasi şərhçinin sözlərinə görə, bizim ümumiyyətlə, beynəlxalq təşkilatlarda iştirakımız bu prinsiplər, yəni dövlətimizin və xalqımızın milli maraq və mənafelərinin üstün tutulması üzərində qurulur.

"Qoşulmama hərəkatına gəlincə, artıq bu il sentyabrın 6-da 59-cu ildönümü qeyd olunan bu təşkilat təbii ki, BMT-dən sonra dünyanın ən böyük dövlətlərarası təşkilatı olması baxımından diqqət çəkir. İkinci bir tərəfdən, bu təşkilatın üzvü olan dövlətlər qlobal sülhə, qarşılıqlı anlaşmaya töhvə verməyə kökləniblər. Eyni zamanda, dünyada millətlər və dövlətlər, xalqlar arasında qarşıdurmaların olmaması üçün çalışırlar. Azərbaycan da torpaqları qonşu Ermənistan dövləti tərəfindən işğal edilmiş, bir milyona yaxın qaçqın və köçkünü olan dövlət kimi bu təşkilata artıq 9 ildir qoşulub. Ondan savayı bu 9 il ərzində Azərbaycan başqa dövlətlərin qibtə edəcəyi dərəcədə Qoşulmama hərəkatı daxilində irəliləyə bilib. Yəni o irəliləmənin nəticəsidir ki, 2019-cu ildən Azərbaycan Respublikası və təbiidir ki, onun Prezidenti Cənab İlham Əliyev bu təşkilata üç il müddətinə rəhbərlik edir. Bu rəhbərlik dövründə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bir çox qlobal problemlərin həlli istiqamətində konkret addımlar atıb, təkliflərlə çıxış edib və nəticələr əldə edib.

Qeyd olunduğu kimi, BMT-nin xüsusi sessiyasının çağırılması da bura daxildir. Eyni zamanda, biz xatırladaq ki, koronavirus pandemiyası elan edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda Qoşulmama Hərəkatının rəhbəri Cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə Hərəkatın üzvü olan 120 dövlətin, eləcə də Ümumdünya Səhiyyə Təşkilatı rəhbərliyinin iştirakı ilə onlayn konfrans keçirilib. Yəni, qlobal problemin həllində bu dəfə də Azərbaycan prezidenti, Azərbaycan dövləti lider rolunda çıxış elədi. Əlbəttə ki, belə bier platforma Azərbaycana, özəlliklə də, dövlətimizə və xalqımıza gərəklidir, faydalıdır. Ona görə ki, qeyd etdiyimiz kimi, bizim özümüzün də problemlərimiz var, özəlliklə də Ermənistanın işğal faktoru. Digər tərəfdən də, biz dünyanın, bəşəriyyətin taleyinə biganə deyilik. Yəni, öz problemlərimizi bu cür platformaların vasitəsi ilə həll etməklə bərabər, bəşəri problemlərin həllinə töhfə verməyə çalışırıq. Ötən müddət ərzində Azərbaycan dövləti bu təşkilatda iştirakı ilə göstərdi ki, qlobal problemlərin həllində mümkün olan hər şeyi edir, bir addım belə geri çəkilmir. Mən düşünürəm ki, Qoşulmama Hərəkatının üzvülüyü Azərbaycana hər iki tərəfdən fayda gətirir və gətirməyə də davam edəcəkdir. O iki tərəfə gəlincə qeyd etdiyimiz kimi, birincisi bizim milli maraq və mənafelərimizdir, ikincisi də bəşəri problemlərin həllinə verməkdə olduğumuz töhfələrdir. Hər ikisinin öhdəsindən gəlirik, bu da təsadüfi deyil. Çünki Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyev qlobal səviyyədə təcrübəsi və bacarığı olan bir liderdir. Ona görə də bu Qoşulmama Hərəkatı məhz Azərbaycanın rəhbərliyi altında daha çox tanınmağa və daha çox qəbul edilməyə başlayıb", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***



## "Gənclər pandemiya dövründə də özlərini bir daha sübut etdilər"

"İstər pandemiya ilə mübarizədə, istər erməni təxribatlarının qarşısının alınmasında, istərsə də daxildə hansısa qüvvələrin ölkəmizdə ictimai-siyasi sabitliyi, əmin-amanlığı pozmağa yönəlmiş cəhdlərin qarşısının alınmasında gənclərimiz qətiyyətli mövqe nümayiş etdirdi". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Gənclər və idman Komitəsinin üzvü olan deputatı Cavid Osmanov pandemiya ilə mübarizədə gənclərin fəaliyyətindən danışarkən deyib. O bildirib ki, bu gün insanlar öz fəaliyyətlərini COVID-19 pandemiyasına uyğun şəkildə tətbiq edilən qaydalara əsasən qurmalıdır: "COVID-19-la mübarizədə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində əhəmiyyətli işlərə imza atılıb. Buna əsasən, Azərbaycan bu mübarizədə dünya ölkələrinə nümunə kimi təqdim olunur. Pandemiya ilə mübarizədə Azərbaycan gəncliyinin də üzərinə xeyli vəzifələr düşdü. Azərbaycan gəncliyi bu mübarizədə öz effektiv iştirakları ilə cəmiyyətdəki rollarını bir daha sübut etdilər. Yeni Azərbaycan Partiyasının gəncləri, onların əhatəsində olan könüllülər ən həssas vaxtlarda insanları narahat edəcək çətinlikləri aradan qaldırmaq məqsədi ilə onlarla ünsiyyət qurmaq bacarıqlarını bir daha nümayiş etdirdilər. Yeni Azərbaycan Partiyasının bütün şəhər və rayon təşkilatlarını əhatə edən bu könüllü gənclər partiyanın adından təqdim edilən ərzaq yardımlarının və gigiyenik qoruyucu vasitələrin çatdırılmasında, sosial xidmətlərin, xüsusilə də, yaşı 65-dən çox olan insanlara diqqət və qayğının göstərilməsində iştirak etdilər. Həmçinin, Heydər Əliyev Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ərzaq sovqatlarının çatdırılmasında da məhz bu gənclər çox mühüm işlər gördülər".

# Ermənistan hakimiyyətində xaos...

*Azərbaycanın gücü qarşısında Paşinyan çıxış yolu axtarışında....*

***Saxtakarlıq, yalan danışmaq ermənilərin qanında olmasını siyasətçilər, dahilər tərəfindən dəfələrlə deyilib və sübut edilib. Əslində, bu, çoxları üçün yenilik olmasa da, erməni baş nazir Nikol Paşinyan üçün hələ də anlaşılmazdır. Belə ki, küçə "demokratı"nın yalyanlar üzərində qurduğu utopik xəyalarını erməni xalqının başına yeridərək Ermənistanı "inkişaf etmiş ölkələr sırasına çıxaracağam" vədləri elə vədlər olaraq qaldı. Verilən vədlərə, yalanlara diqqət yetirək: Paşinyan deyirdi ki, "2019-cu ilin sonuna qədər Ermənistan iqtisadi artım baxımından ilk onluğa daxil olmasa da ilk 15 ölkə arasında yer alacaq".***

Bu sözləri Nikol erməni sahibkarlar üçün yeni il qəbulu zamanı bəyan etmişdi. Söylədiyi yalandan cuşa gələn baş nazir Ermənistanın başa çatmaqda olan ildəki göstəricilərinin, nəinki Cənubi Qafqazda, hətta dünya ölkələri arasında da "rekord" qırdığını bildirirdi. "Novosti Armeniya" saytı Paşinyanın fikirlərindən sitat gətirib: "Ermənistan tərəfindən həyata keçirilən "bu uğur" nəinki Avrasiya İqtisadi Birliyi, hətta MDB ölkələri arasında ilk göstəricidir. Mən yüksək ehtimalla, iqtisadi artım baxımından Ermənistanın Avropada liderlər sırasında olacağına da şübhə etmirəm".

Göründüyü kimi, Paşinyan baş nazir seçildikdən bu günə kimi, ancaq və ancaq sərsəm bəyanatlar və yalan vədlər verməklə, hakimiyyətdə olmaq müddətini uzatmağa çalışır. Çünki dövlətçilikdə naşı olan Paşinyanın küçə yürüşlərinin səfasını görmüş əhali onun səriştəsizliyindən özünə sərf şəkildə davamlı istifadə etdiyinin artıq görür və onun çıxışlarında vurğulanan məsələlər, komandasında baş verən son istefalar da bunun bariz nümunəsidir.

Görünən odur ki, iki il əvvəl hakimiyyətə gələn yeni qüvvələr əvvəlkilərdən heç nə ilə fərqlənmədi. Onlar da Ermənistanı xarici yardımların hesabına yaşadırdı, Paşinyan da və s. Onu sələflərindən fərqləndirən yeganə cəhət Dağlıq Qarabağdakı erməni icmasının Ermənistanda hakimiyyətdə olan nümayəndələrinə qarşı mübarizəsidir. Başqa sözlə, "Qarabağ mafiyasına" qarşı mübarizə ilə Paşinyan siyasi reytinqini artırmağa və hakimiyyətinin ömrünü uzatmağa çalışır. Məhz Paşinyan iqtidarının yarıtmaz siyasəti, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır. Ölkədə əhalinin sayının ildən-ilə azalması elə həddə çatıb ki, bu gün "ordu" deyilən məfhum yox dərəcəsindədir.

### "Qurtuluş muzdlu könüllülərdir" sərsəm düşüncə girdamında...

Bu Paşinyanın nə birinci, nə də sonuncu addımıdır. Küçədən hakimiyyətə gələn Nikol Paşinyanın bu sərsəm bəyanatları isə, artıq ölkədə gərginliyi n son dərəcə artığı görünməkdədir. Sentyabr ayından Paşinyanın ətrafında çox ciddi dinamik şəkildə güclənməkdə olan müxalifət qüvvələri də küçə "demokratı"nın ölkənin iki il ərzində hər tərəfli çökdürdüyünü görərək, ona qarşı hiddətləri daha da artmaqdadır. Belə vəziyyətin baş verdiyi məqamda Paşinyanın "Müdafiə haqqında" qanuna dəyişikliklərin edilməsi müzakirə olunması, faktiki olaraq, məhz ölkədə müdafiəni təşkil edəcək insani resurslar, ordu, orduda nizam-intizamın zəif, ümumiyyətlə olmamasının göstəricisidir. Ona görə də Paşinyan elə zənn edir ki, yeni qanunda könüllülərin orduya cəlb olunması ilə işğalçı Ermənistanın ordusunu gücləndirmək olar. Ancaq bu, mümkün deyil.

### Azərbaycanın Güclü ordusu, güclü büdcəsi - Paşinyanın aciz durumu...

Çünki Azərbaycan Prezidenti İlham Əliyev cənablarının dediyi kimi: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!". Bir də, elə Paşinyandan belə sərsəm düşüncə gözləmək heç də təəccübli deyil. Çünki bu gün iqtisadi cəhətdən ağır durumda olan Ermənistana Paşinyan hansı vəsaitlə muzdlu qocaları toplamaq istəyir? Paşinyan gəldiyi gündən bu günə kimi, absurd fikirlər "carçısı" olub. Çünki xalq, ordu ənənəsi Ermənistanın tarixində, ümumiyyətlə olmayıb və belə olan halda "könüllülər"adı altında muzdluların və terrorçuların Ermənistan ordusuna cəlb etməsi və onların saxlanılması Ermənistan büdcəsinin öhdəsindən gələcəyi mümkünsüzdür. Həmişə olduğu kimi, Ermənistanın bu niyyəti də fiaskoya uğrayacaq. Çünki Paşinyan hakimiyyətə gəldiyi gündən öz şəxsi mənafeyini güdüb, ancaq hansı formada, hansı adla ordu yaratsa da Azərbaycan ordusu qarşısında aciz qalacağı ilə nəticələnəcək.

Bunu rəqəmlər də göstərir: ciddi iqtisadi problemləri olan Ermənistan bu günlərdə 2020-ci il üçün hərbi büdcəsini təsdiqləyib. Büdcə əvvəlki illə müqayisədə 25%-dək artırılıb. Ekspertlərin sözlərinə görə, gələn ilin hərbi büdcəsi təxminən 625 milyon dollar (ÜDM-in 4%-dən də az) olacaq. Müqayisə üçün Azərbaycanın hərbi büdcəsinə nəzər salsaq, görərik ki, Azərbaycanda bu rəqəm 2 milyard 260 milyon dollardır! Bu, Ermənistanın hərbi büdcəsindən təxminən 4 dəfə çoxdur. Göründüyü kimi, bu real faktordur ki, güclü ordusu qarşısında Azərbaycanın büdcəsi qarşısında Ermənistanın zəif büdcəsi hansı orducan, hansı müharibədən dnışa bilər? Müharibə yenidən alovlanarsa, Ermənistan mütləq və mütləq məğlub olacaq.

Sadalanan bu faktlar bir daha sübut edir ki, Azərbaycanın güclü ordusu, güclü büdcəsi qarşısında Paşinyana "könüllülərin" də bir köməyi olmayacaq. Belə olan bir halda Paşinyanın israrla muzdlu ordu ilə təxribatlara əl atması bir daha Ermənistanın baş nazirinin nöbəti faşist xislətini nümayiş etdirmək olduğunu sübut edir.

Xatırlatmaq istərdim ki, Paşinyanın bu hərəkətinə qarşı, Ermənistan parlamentindəki çoxluq "Çiçəklənən Ermənistan" partiyasının sədri, Ermənistan parlamentindəki "Sarukyan" fraksiyasının lideri, milyonçu Qaqik Sarukyanın təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə razılıq verib və faktiki olaraq onu deputat toxunulmazlığından məhrum edib. Bununla da fraksiya lideri ölkənin təhlükəsizlik qüvvələri tərəfindən ifadə vermək üçün istintaqa cəlb edilmişdir. Bu fonda "Çiçəklənən Ermənistan" Partiyasının parlamentdəki "Tsarukyan" fraksiyasının üzvü olan deputatlar qanunverici orqanın iclasını boykot edərək zaldan çıxıblar. Fraksiyanın deputatı Arman Abovyan isə öz çıxışında demokratik dəyərlərin bərpası üçün söz və fikir azadlığı şüarları ilə toplananların siyasi opponentlərin ağzını yummağa çalışdığına görə təəssüfləndiyini diqqətə çatdırıb.

### Artur Vanetsyan: "Paşinyanın hakimiyyət dövrü Ermənistan tarixində qeyri-müəyyənlik, təbii dağılma və bədbəxtlik dövrü kimi qalacaq"

Ermənistanın "Vətən" Partiyasının sədri, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan isə Paşinyanın hakimiyyət dövrü Ermənistan tarixində qeyri-müəyyənlik, təbii dağılma və bədbəxtlik dövrü kimi qalacağını bildirib. Onun sözlərinə görə, mövcud hakimiyyətin uğursuzluqlarından və məhvolmalarından daha vacib məsələ dağılmış iqtisadiyyatı bərpa etmək, məhv olan təhsil və sosial sistemləri yenidən yaratmaqdır: "Paşinyan tərəfindən məhv edilmiş istənilən saheni yalnız iradə, idarəetmə qabiliyyəti və düzgün insanların mövcudluğu ilə bərpa etmək mümkündür".

Baş verən son hadisələr fonunda Q.Sarukyanın məhz N.Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması və onun öz siyasi baxışlarına görə, daha doğrusu öz fikrini azad şəkildə ifadə etdiyinə görə məsuliyyətlə cəlb olunması işğalçı ölkədə baş verənlərin siyasi təqib olduğunu bir daha sübut edir.

Beləliklə, görünən odur ki, hazırda bu ölkədə hakimiyyət həqiqi işlə yox, avantüra ilə məşğuldur. İqtidar rəsmiləri yalnız populist çıxışlarla camaatın könlünü ələ almaq istəyirlər.



Xalq isə bunları görür, etiraz edir. Bu fonda da işğalçı ölkədə ictimai-siyasi vəziyyət sürətlə gərginləşir. Paşinyanın son addımları artıq onun Ermənistanda bir diktator kimi qəbul edilməsinə gətirib çıxarmaqdadır. Lakin təəssüflər olsun ki, Qərbin demokratiya institutları - nə ABŞ Dövlət Departamenti, nə Avropa Şurası Parlament Assambleyası, nə ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, nə ABŞ-ın, nə də Qərb ölkələrinin Ermənistandakı səfirlikləri baş verənlərə heç bir münasibət bildirmir.

Bu məqamda qeyd etmək istərdim ki, işğalçı ölkədə bu hadisələr indi bizim ölkədə yaşansaydı Ermənistan və erməni lobbisinin təsiri və manipulyasiyası əsasında açıq antiazərbaycan siyasət yürüdən bəlli qruplar çoxdan artıq bizə qarşı təzyiqlərə başlamışdılar. Bu zaman özlərini demokratiya carçısı adlandıranlar Azərbaycanı uğurlu inkişaf yolundan döndərmək kimi çirkin niyyətlərinə nail olmaq üçün əllərindən gələni edərdilər. Buna görə də belə qənaətə gələ bilərik ki, özünü demokratiya çətiri altında gizlədənlərin "demokratiya fəlsəfəsi" "Mənə işləyirsənsə, deməli demokratsan" tezisindən ibarətdir. Ermənistanda hansı vəziyyət olursa olsun, koronavirusdan da dəhşətli vəziyyət ola bilməz, ancaq Paşinyan "mən nə deyirəmsə, o da olmalıdır" sərsəm "düşüncə" nəinki onu, bütünlüklə ölkəni uçuruma aparmaqdadır.

### Vigen Akopyan: "İstər insanları evdə saxla, istər saxlama, fərqi yoxdur, bu, anlaşılmaz bir vəziyyətdir"

Elə politexnoloq Vigen Akopyan da vəziyyətin yaxşı olmadığını bildirib. Qeyd edib ki, indiki halda Ermənistan hakimiyyəti harada olduğu və hara getmək istədiyi barədə sistemli anlayışa sahib deyil. O bildirib ki, hakimiyyət nəsə etmək istəyir, qabaqlayıcı tədbirlər görməyə çalışır, amma hazırda situasiya mövcud siyasi kursun əleyhinədir. Akopyanın sözlərinə görə, ölkədə fövqəladə vəziyyət elan edilib, karantin var, amma vəziyyətə nəzarət mümkün olmur: "İstər insanları evdə saxla, istər saxlama, fərqi yoxdur, bu, anlaşılmaz bir vəziyyətdir. Sistemli mexanizmin olmadığına məmurların açıqlamaları da şahidlik edir. Paşinyan bir söz deyir, komendant başqa söz, səhiyyə naziri isə bir ay öncə tam başqa tərəfdə idi, indi əksinədir və ümumiyyətlə, o, nə vaxt adekvat olub ki! Bu halda Ermənistanın sosial-iqtisadi durumunun daha da ağırlaşması müşahidə olunur. Bir şey aydındır ki, biz itirəcəyik. Biz hələ ən ciddi krizisi hiss etməmişik. Mən o fikirlə tam razıyam ki, bizi qarşıda əsl iqtisadi fəlakət gözləyir".

Vigen Akopyan onu da bildirir ki, bu halda ordunun təminatında yaranacaq problemlər Ermənistanın təhlükəsizliyinə də birbaşa təsir edəcək: "Ən çox narahatlıq yaradan məqamlardan biri də Qarabağ münaqişəsi ilə bağlıdır. İndiki halda məsələ hərbi həll müstəvisinə keçsə, problemlər çox olacaq. Azərbaycan yenə güc nümayiş etdirir. Dünyanın başı isə koronavirusa qarışıb və məni narahat edən budur ki, indi savaş başlasa, ona diqqət yetirən, beləliklə də Azərbaycanı dayandıran olmayacaq".

### Erməni ekspertlərindən Paşinyana mesaj: "Münxen Təhlükəsizlik Konfransında bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub oldu"

Erməni ekspertlərinin sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələrinin təlimləri çox güclüdür. Əgər əvvəllər snayper təlimləri keçirirdilərsə, indi artıq artilleriya, tanklar və aviasiya tətbiq edirlər. Paşinyanın görünür "ağzı isti yerdədir". Erməni ekspertləri bir daha küçə "demokratına" xatırladaraq bildirirlər ki, 1962-ci ildən keçirilən Münxen Təhlükəsizlik Konfransı dünyanın ən nüfuzlu dialoq platformalarından biri sayılır. Və belə bir önəmli tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev sən Pavşinyana tarixi dərs verdi. Prezident İlham Əliyev çıxışında Dağlıq Qarabağ, eləcə də Azərbaycanın digər tarixi əraziləri, ö cümlədən İrəvanla, həmçinin Ermənistanın bir dövlət olaraq formalaşdırılması ilə bağlı tarixi faktlara söykənən tarixi çıxışı Ermənistan baş naziri sən Paşinyanın yalanlarını darmadağın etmədimi? Bu debatda, sadəcə, Ermənistanın baş naziri deyil, bütövlükdə erməni təbliğat maşını dünyanın gözü qarşısında Azərbaycan Prezidentinə məğlub olduğunu bir daha sübut etdi.

Bir sözlə, Ermənistanda vəziyyət çox kritik durumdadır, iqtisadi fəlakət səviyyəsində kataklizmlərin olması labüd görünür. Olmayan başını itirən Nikol Paşinyan ola bilər ki, bəlkə də siyasi intihara əl atsın. O zaman Paşinyan işğal altındakı Azərbaycan torpaqlarını geri qaytarılması və bunun qarşılığında Ermənistanın ilk addım olaraq ağır blokada vəziyyətindən çıxarılması onun məhvdən hifzinin yegənə çarəsi ola bilər. Hər halda, Ermənistan rəhbərliyi bu haqda dərindən düşünməli və obyektiv nəticələr çıxarmalıdır. Sonra gec ola bilər.

Gec olacağı təqdirdə ikinci variant-müharibə versiyası alternativsiz görünür. Ermənistan tərəfinin koronavirus pandemiyasının yaratdığı çıxılmaz iqtisadi böhran vəziyyətində bu varianta əl atması, yəni "kiçik müharibə"yə başlamaqla narazı kütlənin diqqətini ağır iqtisadi-sosial problemlərdən yayındırması istisna olunmur. "Böyük depressiya"nın təcrübəsi göstərir ki, ölkədə iqtisadiyyatın çökməsi millətçilik dalğasının yüksəlməsinə və "xarici düşmən" axtarışlarının intensivləşməsinə, əgər o varsa bu istiqamətdə avantürüst davranışlararın artmasına rəvac verir.

Beləliklə, bütün bu baş verənlər belə bir qənaətə gəlməyə imkan verir ki, COVİD-19 pandemiyasının təsiri altında Ermənistanın postpandemiya dövrü daha ağır və kəskin kataklizmlərlə müşayiət oluna bilər. Nəticədə Ermənistanın heç zaman olmadığı səviyyədə "qırğı" qiyafəsinə girməsi gözlənilənıdir. O zaman Paşinyanın sonrakı peşimançılığı fayda verməyəcək. Necə deyərlər "daldan atılan daş..." erməni xalqına növbəti zərbə olacaq!!!

Bəs, Ermənistanın faşist xislətli rəhbərliyi Paşinyanın düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu təxribat yolu yox, "muzdlu könüllülər" yığmaq yox, Ermənistanın yeganə nicat yolu işğal altında olan torpaqlardan rədd olub getmək!. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq. Sözün bütün mənalarında... Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bü faktın gerçəkliyi göz önündədir...bu isə heç cür normal idarəetmə sistemi qura bilməyən Ermənistan hakimiyyətində xaosun açıq şəkildə özünü göstərdiyinin reallığıdır.

**A.SƏMƏDOVA**

# ReAL Müsavatın cavabını sərt verdi

## *Natiq Cəfərli: "Müsavat rəhbərliyi ReAl-a çamur atır və gündəmə gəlir"*

***Müsavat partiyasının başqanı Arif Hacılının ReAl partiyasına qarşı irəli sürdüyü ittihamları, hakimiyyətə işləməsi və müxalifətə xəyanət etməsi yönündəki iddiaları ciddi və kəskin narazılığına səbəb olmaqla yanaşı, həm də yeni faktları və məsələləri ortaya çıxarıb. Daha dəqiq desək, A.Hacılının ittiham və iddiaları əslində ona baha başa gəlməyə başlayıb.***

Lakin daha bir maraqlı məqam budur ki, ReAl funksionerləri müsavatçıların cavablarını daha sərt şəkildə verməklə, onları adekvat ittihamları ilə necə deyələr, atəşə tutublar. Onlardan biri də partiyanın sədr müavini Natiq Cəfərlidir. SİA-nın məlumatına görə, o, əslində müsavatçılarla heç bir problemlərinin olmadığı halda Arif Hacılının birdən-birə bu qədər aqressiv fikir bildirməsini, ReAl partiyasını müxalifət partiyası hesab etməməsini maraqlı cavabı ilə ictimailəşdirib. Üstəlik, ReAl-ın partiya olaraq rəsmi qeydiyyatdan keçməsinə, Erkin Qədirlinin isə parlamentdə deputat seçilməsinə qarşı Arif Hacılının qısqanc yanaşmasını psixoloji cəhətdən sarsıntı keçirməsi ilə əlaqələndirib.

**Arif Hacılı Tofiq Yaqublunu Müsavat İdarə Heyətinə seçilməsinə imkan vermədi, indi isə qeyri-səmimi olaraq onu müdafiə edir**

"Müsavatla bizim problemimiz olmayıb. Məncə, burada psixoloji məsələ var", deyən ReAl-çı funksioner əlavə edib ki, Müsavatın rəhbəri Arif Hacılı eyni zamanda Müsavatın ictimai rəydə müzakirə mövzusu olmadığından da narahat olub və gündəmə düşmək üçün ReAl-ın adını çəkərək, partiyanı ittiham edib.

Digər bir tərəfdən, Müsavat Partiyasının təmsilçisi olmasına rəğmən, AXCP və "Milli Şura" həndəvərində var-gəl edən, fəaliyyəti ilə Müsavata və Arif Hacılıya deyil, məhz AXCP-"Milli Şura" cütlüyünə, xüsusilə Əli Kərimliyə xal qazandıran Tofiq Yaqublunun üzərindən siyasi divident qazanmağa cəhd edən Arif Hacılı bu məsələdə də ciddi baryerlərlə üzüzə qalıb. Məhz bu mənada Natiq Cəfərlinin fikirləri maraq doğurur:

"Ölkədə pis-yaxşı ReAl, Tofiq Yaqublu müzakirə edilir. O Tofiq bəyi ki Müsavat İdarə Heyətinə seçilməsinə imkan vermədi, indisə qeyri-səmimi olaraq onu müdafiə edir. Və ya AXCP-dən olan insanların həbsi müzakirə edilir, əvəzində Müsavat tam kənardadır. Bu halda Müsavatı yada salmağın çox qeyri-adekvat bir yolunu tapırlar və ciddi izah verməden Müsavat rəhbərliyi ReAl-a çamur atır və gündəmə gəlir".

**Arif Hacılının məntiqi şikəstdir**

ReAL-çıları hakimiyyətlə əlbir olmaqda, müxalifətə xəyanət etməkdə də suçlayan Arif Hacılının cavabını verməkdə davam edən Natiq Cəfərli daha bir nüansla arqumentini irəli sürüb və əslində bu gün müxalifət partiyalarının birbirlərini hakimiyyətə işləmək ətrafındakı ittihamlarını cılızlıq, ağılsızlıq adlandırıb. SİTAT: "Ona qalsa mən deyə bilərəm ki, Arif Hacılının yazdığı statusu iqtidar daxilindən kimsə ona yazdırıb. Belə danışmağım xoşuna gələrmi? Təbii ki, gəlməz. Onda söz deyirsənsə və ciddi adamsansa, bu halda sözünü sübuta yetirməlisən. Əgər dediyin sözün əsasında qeydiyyat məsələsi durursa, Müsavat 27 ildir qeydiyyatdan keçib. 27 ildə 27 dəfə Müsavatın qeydiyyatı ləğv edilə bilərdi. Hakimiyyət qeydiyyatı ləğv etməyibsə, bu, sizin satılmağınıza dəlalət edir? Belə şikəst məntiqdən, ağ-qara siyasətdən Azərbaycan xilas olmalıdır".

***Rövşən RƏSULOV***

# "Youtube" və "facebook"dan çağırış edən azərbaycanlılar "İnterpol"a verildi

***Azərbaycan Respublikasının vətəndaşı 1980-ci il təvəllüdlü İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 12 dekabr 2019-cu il tarixdə Azərbaycana deportasiya olunmuş və Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə barəsində Nəsimi rayon məhkəməsinin 22 avqust 2019-cu il tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar 2019-cu il dekabrın 14-də Penitensiar xidmətin 1 saylı istintaq təcridxanasına yerləşdirilmişdir.***

Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 15 avqust 2019-cu il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, Elvin İsayev 2018-ci ilin əvvəllərində Azərbaycan Respublikasının vətəndaşları olmaqla hazırda Avropanın müxtəlif ölkələrində müvəqqəti məskunlaşmış Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı, Süleyman Süleymanlı və şəxsiyyətləri istintaqa məlum olmayan digər şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək Azərbaycan Respublikasını tərk etdikdən sonra, müvəqqəti məskunlaşdığı Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində özünə məxsus hesablar vasitəsilə "youtube" və "facebook" sosial şəbəkələrində Azərbaycan dilində yerləşdirdiyi video müraciətlərində, yayımladığı video görüntülərdə və paylaşımlarda hakimiyyətin zorla ələ keçirilməsi və zorla saxlanılmasına, habelə ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn ifadələr işlətməklə Azərbaycan Respublikası vətəndaşlarına müraciət edərək hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal itaətsizlik və müqavimət göstərilməklə kütləvi iğtişaşlar və zorakılıqlar etməyə açıq çağırışlar etmişdir.

Qeyd olunanlara əsasən Elvin İsayev Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) və 12.1, 34.2, 281.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar dövlət əleyhinə yönələn açıq çağırışlar etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılmaqla baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Eyni zamanda, Elvin İsayevin qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əməllərində iştirak etmiş Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı və Süleyman Süleymanlı barəsində Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə ayrıca icraata ayrılmış cinayət işi üzrə həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilmişlər, Baş Prokurorluğun təqdimatı əsasında Nəsimi rayon məhkəməsinin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

İstintaq idarəsi tərəfindən qeyd edilən şəxslər barəsində beynəlxalq axtarışın elan edilməsinə dair müvafiq qərarlar qəbul edilməklə, icra edilməsi üçün Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Xidmətinə, həmçinin "İnterpol"-un Milli Mərkəzi Bürosuna göndərilmişdir.

Prokurorluq orqanları tərəfindən qeyd edilən şəxslərin konkret olaraq olduğu yerlər müəyyən edilməklə qanunvericiliyin və müvafiq beynəlxalq Konvensiyaların tələblərinə uyğun olaraq Azərbaycan Respublikasına ekstradisiya edilmələri və məhkəmə məsuliyyətinə verilmələri üçün mümkün olan bütün tədbirlərin həyata keçirilməsi təmin ediləcəkdir. Hazırda həmin cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

***Nigar Məmmədova***



**Təhmasib Novruzov**

# Dünəndən bu günə, bu gündən sabaha baxış bucağı

2007-ci ildə uzun illərdi Türkiyədə yaşayan köhnə dostlarımdan biri, Milli Azadlıq Hərakatının fəalı olmuş mozaika üzrə təsviri sənət ustası Əhməd Rza ilə görüşdük. Milli Azadlıq Hərakatı dövrü, sonrakı baş verənlər barədə uzun-uzadı söhbət etdik. Ayrılanda mənə Türkiyədə çap olunmuş bir kitab bağışladı və "vaxtın olanda oxuyarsan, faydalı olar" dedi.

Kitabın adını dərhal oxudum: "Azərbaycanda demokrisi: addım-addım təslimiyyat!". Kitabın adı diqqətimi necə çəkdisə, Əhməd bəydən ayrılan kimi onu vərəqləməyə başladım. Yəqin tarixi sənədlərə əsaslanan həmin kitabı Azərbaycanda çoxları oxuyub və orda bəzi xarici dövlətlərin məhz demokratiya, hürriyyət adı altında ötən əsrin əvvəllərində qos-qoca Osmanlının içində necə təfriqə saldığından, sonrakı illərdə Türkiyənin içinə qədər sızdırılmış müxtəlif dövlətlərin və cərəyanların bu qədim Oğuz diyarını parçalamaq üçün hansı əməllərə əl atdıqlarından xəbərdardır. Kitabın giriş hissəsində yazıldığı kimi, onun yazılmasında və nəşr edilməsində başlıca məqsəd də ondan ibarətdir ki, Türkiyənin başına gətirilənlərdən Azərbaycan xalqı xəbərdar olsun və onların bir zamanlar buraxdıqları səhvləri təkrarlamasın. Bundan sonrakı dövrlərdə zaman-zaman qardaş ölkənin televiziya kanallarında efirə çıxan "Diriliş Ərtoğrul", "Möhtəşəm yüzil", "Vətənim sənsən", "Paytaxt Abdulhəmid" və hazırda davam edən "Quruluş Osman" serialları da bizlər üçün əsil örnəkverici tarixi gerçəkliklərin inikasıdır.

Müstəqil türk dövləti olan Səlcuq imperiyasının qüdrətlənməsi və düşmənlərə qarşı gerçək dövlət mövqeyi ilə savaş acması müqabilində dövlətin ən yüksək pilləsində oturan, Baş Əmir vəzifəsini daşıyan Sadəddin Köpək, Əmir Bahəddin kimiləri özlərinin qul-beçələrini başlarına yığıb türk dövlətinin mənafelərini Bizansa və Monqollara satır. Eyni vəziyyətlə, əslində həmin serialın davamı olan "Quruluş Osman"da qarşılaşırıq. Alışar bəy və onun kimi satqın ünsürlər hər vasitə ilə düşmənin üstümüzə ayaq açmasına şərait yaradır və yeri gəlincə bizdən olan gerçək vətənsevərləri məhv etməkdən belə çəkinmir.

Bənzər hadisələrlə "Paytaxt Əbdülhəmid"də də qarşılaşırıq. Burda da Böyük Yəhudi İmperiyası yaratmaq istəyən sioniastlərlə iş birliyində olan Mahmud Paşa, əvvəlkilərdən fərqli olaraq dövlətin yüksək rütbəli yetkilisi olmaqla yanaşı, həm də Osmanlı Sultanı Əbdülhəmidin bacısının həyat yoldaşıdır. Nəzərə alsaq ki, bütün bu seriallar tarixi həqiqətlərə istunad edilərək çəkilib və əsas obrazların hamısı tarixi simalardır, o zaman türkün tarixində hər zaman içimizdən olan və dövlətin ali rütbəsini daşıyan ikiayaqlı məxluqların xəyanət tarixinin çox keçmişlərə gedib çıxdığının şahidi olarıq.

Həm də onun şahidi oluruq ki, bütün belə yaramaz, xain simalara (Oxu:simasızlara) rəğmən, Ərtoğrul da , Osman da, Əbdülhəmid də qalib çıxırlar və özləri ilə bərabər türk xalqını da qələbədən-qələbəyə aparırlar. Bu qədər xəyanətlər burulğanında olmalarına rəğmən özlərindən qat-qat güclü düşmənləri necə enə bildilər, mənsub olduqları türk xalqını qələbədən-qələbəyə necə apara bildilər bu türk dünyasının qüdrətli sərkərdələri? Təbii ki, ilk səbəb onların haqqa, ədalətə söykənən sərkərdəlik keyfiyyətləri və haqqın, ədalətin ən böyük dayağı olan yaradanın qüdrətindən pay verilməsi bu qələbələrdə önəmli rola malikdir. İkinci əsas dəstək isə haqqa, ədalətə söykənən bu yenilməz qüdrət sahiblərinə olan xalq sevgisi və bu sevgi ilə yoğrulan xalqın gücü olmuşdur.

**İndi gələk müasir dövrümüzə.**

Tarix hər zaman təkrarlanır, ancaq Azərbaycanda bu tarix sadəcə təkrarlanmır, eyni ilə əksini tapır. Bu günün Ərtoğrul Qazisi də, Qazi Osman Paşası da, Sultan Süleymanı da, Sultan Əbdülhəmidi də hər birimizə məlumdur, Sadəddin Köpəkləri də, Əmir Bahəddinləri də, Bəypoladları (Albastları) da, Mahmud Paşaları da... Oxucum sual verməkdə haqlıdır ki, hamısı məlundursa, bu yazıya nə ehtiyac var, məlum olanı hamımız bilirikse? Elə deyil, əziz oxucum. Məlum olmayan bir məqam var: Bizlər, bu günün sadə türk övladları o dövrlərdəki sadə türk övladları kimi sərkərdəmizə dəstək verə bilirikmi? Nəzərə alsaq ki, o dövrlərdə türk babalarımız ikiüç məlum düşmənlə vuruşduğu halda, bu gün Azərbaycan türkləri həm daxildə, həm də xaricdə, bilinən və bilinməyən onlarla düşmənlə savaşır. Və bu savaşanların hamısı da türkün yeni dirçəlişindən qorxur ki, bu dirçəlişin də Azərbaycanın ilbəil güclənməsindən, Türküstanla Türkiyənin birliyinin bu inkişafdan keçdiyini yaxşı anlayırlar. Belə tarixi keşməkeşli dönəmdə dövlətimizə, onun yenilməz rəhbərinə gerçək xalq dəstəyi gərəkdir. Şükür, xalqımız on illərdir ki, bu dəstəyini tərəddüd etmədən ortaya qoyur.

Lakin indi, hesab edirəm ki, daha böyük dəstək, fədakarlıq tələb olunur hər birimizdən. Bunu etməsək tarix və gələcək nəsillər bizi bağışlamayacaq. Bunu etməsək hələ də millət ola bilmədiyimizi dünyaya göstərmiş olacağıq. Haydı, Azərbaycan türkü, millət olduğuimuzu dünyaya göstərək. Həm daxili, həm də xarici düşmənlərə qarşı açıq savaşda bulunan dövlətimizə və sərkərdimizə elə dəstək verək ki, düşmən xalqın da yenilməzliyini görsün. Görsün və çəkilib yuvasında dollarını, avrosunu, rublunu "yesin". Sabahımızın, qüdrətli və yenilməz gələcəyimizin, firavan həyatımızın təminatı naminə bunu etməliyik və etməsək gələcəyin ittihamları başımızın üstündən Domokl qılıncı kimi asılacaq. Birləşək və yenilməz liderimizə yenilməz xalq olduğumuzu göstərək. Düşmənə dost deyənləri də düşmən bilməkdən çəkinməyək. Düşmənimizin düşməni dostumuz ola bilər, ancaq düşmənimizin dostu elə düşmənin özüdür. İçimizdəki düşmən dostlarını təmizləyənə və torpaqlarımızı azad edənə qədər müqəddəs savaşda bir olaq və birliyimizi pozanlara yerini göstərək!. Tanrı millətimizə yar və yardımçı olsun! AMİN!

# Radikal müxalifətin atdığı çamurlar...

*Şərəf və ləyaqətini itirənlərini sonu...*

***Azərbaycanın tanınmış şairi Əhməd Cavad deyirdi, "xalqımızın haqq bağıran səsi olmalı, milli-dövlətçiliyimizin tərənnümçüsü və keşikçisi olmalıdır".Təəssüflər olsun ki, Azərbaycandan xaricdə yaşayan heç də bütün soydaşlarımız ölkəmizin, xalqımızın, dövlətimizin tərənnümçüsü ola bilmirlər.***

Bir sıra hallarda bəzi soydaşlarımız xarici dairələrin təsiri altına düşür, təmsil olunduqları cəmiyyətlərdə Azərbaycan əleyhinə kampaniya aparır, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar. Belələrinə nümunə kimi, tural sadıqlıları, orduxan teymurxanları, məhəmməd mirzəliləri, arif məmmədovları, emin millilləri, qurban məmmədovları, sevinc osmanqızılıları və bu kimi satqıqlar müxtəlif bəhanələrlə Azərbaycanı tərk edib Avropaya sığınan, sonradan özlərini "demokrat", "hüquq müdafiəçisi", "blogger", "siyasi mühacir" adlandıran bu antimilli ünsürlər ermənipərəst dairələrin, eləcə də erməni diaspor təşkilatlarının təsiri altında olan beynəlxalq təşkilatların sifarişi ilə əllərinə keçən hər fürsətdə ölkəmizə çamur atmağa çalışırlar. Onlar xüsusən sosial şəbəkələr üzərindən Azərbaycan üzərinə "səlib yürüşünə" çıxır, dezinformasiyaları həqiqət kimi yayırlar.

Xəyanət başqa necə olur ki?! Təbii ki, hər kəs bilir ki, bütün bunları onlar sifariş əsasında həyata keçirirlər. Birbaşa erməni lobbiçilərinin və diasporasının tapşırıqlarını yerinə yetirirlər. Onlara erməni lobbiçilərinin açıq və ya dolayısı ilə göstərdiyi maliyyə dəstəyi hər kəsə bəllidir. Ancaq insan nə qədər şərəfini və ya ləyaqətini itirə bilər ki, indiki situasiyada öz xalqına və dövlətinə qarşı bu cür iyrənc şərböhtan atasan?! Ermənidən də artıq erməni olan bu çamurlar...

Bunlar düşmən ölkələrin oyuncaqlarıdır. Çünki onlar satıldıqları və sifarişlərini yerinə yetirdikləri Azərbaycanı sevməyən bəzi xarici qüvvələr qarşısında öhdəlik götürüblər. Həmin sifarişləri məhz ölkəmiz üçün belə həssas məqamlarda yerinə yetirərək, insanlarımızın hissləri ilə daha çox oynamaqda, özlərinə olan nifrəti artırmaqdadırlar. Ermənilərin Azərbaycana qarşı əsas silahlarını aktivləşdirmələri ilə xaricdəki antimilli şəbəkə sinxron şəkildə son Tovuz təribatı zamanı Aprel döyüşlərində olduğu kimi. sosial şəbəkələrdə dezinformasiya yaymaqda idilər, guya böyük bir ərazi itirmişik, qurbanlarımız daha çoxdur, gizlədirik və s... Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digərləri bu dəfə də eyni tezislər əsasında bəyanatlar verməyə başladılar. Onlar xaricdə azərbaycanlıların Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verdilər. Xalqımıza, dövlətçilik maraqlarımıza, milli məsələlərimizə belə qəbuledilməz münasibətlə sübut etdilər ki, bu dəyərləri çoxdan itiriblər.

Bu şəxslər azərbaycanlıların vətənpərvərlik aksiyasını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışır, bununla da ermənilərin cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd edilər. Azərbaycan xalqı bir daha xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə qarşı mübarizə aparan bu ünsürlərin əsl riyakar, xain mahiyyətini gördü. Onlar bu dəfə də qırmızı xətti keçdilər. İnsanlarımız öz hiddətini sosial şəbəkələr vasitəsilə bildirdilər və bu gün də bildirməkdədirlər.

### Erməni ilə həmrəy olan riyakarlar

Bütün bu gerçəkliklər fonunda Azərbaycan öz sivil mübarizəsindən bir addım da geri çəkilmir və erməni yalanının ifşası üçün dövləti, millətini sevən hər kəs əlindən gələni əsirgəmir. Lakin təəssüflə qeyd etməliyik ki, əsl həqiqətləri sivil formada dünyaya bəyan etmək imkanlarımız daha da genişləndiyi bir zamanda içimizdən çıxan xainlər də erməni təəssübkeşliklərini ortaya qoyublar. Bu xalqın onlara olan nifrət hissini daha da artırıb və dünya azərbaycanlılarını bərk hiddətləndirib.

Həmin üzdəniraq ünsürlər hər zaman Azərbaycanın uğurlarına kölgə salmaqla, dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasına qarşı çıxmaq istəyən qüvvələrə dəstək verməklə kimlərə "xidmət" etdiklərini əvvəllər də nümayiş etdiriblər. Ancaq bu dəfə işğalçıya, terrorçuya haqq qazandırmaqla, dünyanın gözü qarşısında baş verən hadisələrə görə Azərbaycanı ittiham etməklə əsl riyakarlıqlarını ortaya qoydular. Nə yazıq ki, belə riyakarlarımız, xalq düşmənlərimiz də var və indiyədək kimlər tərəfindən "bəslənildikləri" açıq-aşkar üzə çıxır.

### Nə yazıq ki, "beşinci kolon"un və xaricdəki antimilli şəbəkənin buyruq qulları...

Bəli, nə yazıq ki, daxildəki "beşinci kolon"un və xaricdəki antimilli şəbəkənin buyruq qulları - AXCP sədri Əli Kərimli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli və digər bu kimi ermənidən betərləri qranta görə hər cürə tüpürcükləri qəbul edirlər. Həqiqətən bu koronavirusdun da qorxulu olan bu virusların içində Azərbaycana nifrət, xalqımıza qarşı kin formalaşıb. Yoxsa, ermənilərin çirkin əməllərinə qarşı çıxanlara, bayrağını qoruyanlara, şəhidini ananlara kim bandit, vətənşüvən deyə bilər?! Azərbaycan xalqı əsl həqiqətlərə şahidlik etdi. Hər kəs gördü ki, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli kimi erməni süfrəsinin tör-töküntüləri ilə yemlənənlərdir.

### Sərdar Cəlaloğlu: "Onlar zavallı qaraguruh təbəqədira, ağıl, şüur cəhətdən inkişaf etməyiblər"

ADP sədri Sərdar Cəlaloğlu son günlər AXCP sədri Əli Kərimlinin koronavirus bəhanəsindən əl çəkərək sosial şəbəkələrdə "dövlətin yalanlarını üzə çıxardığım üçün



təziyqlərə məruz qalıram" deməsi bir daha adamı qıcıqlandırır. Axı sən kimsən ki, qıcıqlanasan da: "Faktiki olaraq Əli Kərimli özünə qarşı olan təzyiqlərə siyasi karyerasını inkişaf etdirmək və yaxud müəyyənləşdirmək vasitəsi kimi baxıb. Əli Kərimlinin tutduğu xətt bundan ibarətdir ki, bütün müxalifətdən ayrılsın, özünü hakimiyyətin hədəfinə gətirsin. Bu, bir çox hallarda düşünülmüş şəkildə edilir. Məsələn, bir mitinq keçirir, orda bir neçə nəfər həbs olunursa, il boyu həmin o tutulanların azadlığı məsələsini gündəmdə saxlamaqla özü üçün bir siyasət qurur. Halbu ki, o mitinqin nə özünə, nə partiyasına, nə xalqa heç bir xeyri olmur. İndi də Əli Kərimli koronavirus şəraitində başına gələnlərdən siyasi reytinq düzəltmək istədi, alınmadı. İndi də növbəti oyun oynayır. Müxalifət partiyalarının qeydə alınmasından qıcıqlanır. Bu da baş tutmayacaq".

### "Əli Kərimli satqınlığına görə ona kimsi həmrəy ola bilməz"

ADP sədri, eyni zamanda, Əli Kərimlinin heç bir partiyanı müxalifət kimi qəbul etmədiyini, mövcud fəaliyyətini bu istiqamətdə qurduğunu deyib: "Axı sən həmişə satqınçılıq etmisən, həmçinin, Azərbaycanda heç bir partiyanı müxalifət kimi qəbul eləməmisən. Sən bu günə qədər hər hansı bir siyasi liderin, partiyanın başına gələn hadisə ilə bağlı hansı həmrəylik nümayiş etdirmisən ki, bu gün də başqa partiyalardan belə bir dəstək tələb edirsən? Bəsdir, o qatar getdi...Bir də müxalifət partiyaları sənin katibən deyil. Katibən satqın, mənəviyyatı olmayan Sevinc Osmanqızının kanalından düşmürsən. Artıq siyasi mazəmə düzəltmək vaxtı deyil".

S.Cəlaloğlu istər AXCP-nin, istərsə də Müsavatın 30 ildir ki mitinq deyə özlərini xalqa partiya kimi dəstəkləməyə çalışsalar da, xalqın inamına nail olmadıqlarını deyib: "Xalq 30 ildir inanıblar ki, bu gündədirlər də...İndiyə kimi hərəkatın qabağında kim gedib, Müsavatla AXCP! 27 ildir nə edə biliblər, heç nə!. İndii də, "Milli Şura"nın 2+3 mitinqi. Onların elədiyi heç bir hərəkəti, hansı ad altında olursa olsun, Azərbaycan maraqlarına uyğun hərəkət kimi dəyərləndirmirəm, izləmirəm. Bunu anlamaq o qədər elementardır ki... Hamınız zombiləşibsiniz".

Bir sözlə, xalqının, millətinin, vətəndaşının və dövlətinin güzəranının pisləşməsinə sevinənlərin, ondan öz məqsədləri, öz təbliğatları üçün istifadə edənlərin bir adı ola bilər - Xalq düşmənləri!!!..".

Budur həqiqət. Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi anti-milli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir.

***Rəfiqə HÜSEYNOVA***

---



**İLHAM**

## "Yanıq Kərəmi çal ağa, bəy havasıdır"

Tam qətiyyətlə və əminliklə demək olar ki, musiqi qədər insanın daxili aləmini zənginləşdirən, duyğulandıran, həyacanlandıran, xəyallara daldıran, xoş ovqat, ruhi rahatlıq yaradan ikinci qüvvə yoxdur. Bəzən sevgimizi musiqi ilə tapırıq, kədərimizi də musiqi sədaları ilə unuduruq. Bəşəri varlıqlar arasında elə bir canlı tapmaq mümkün deyil ki , musiqi duyumu, musiqi sevdalısı olmasın. Cəng meydanlarında əsgəri qüvvələr düşmən üzərinə musiqi çağırışları ilə hayqıraraq yeriyib, uğur və qələbələr qazanıb. Təbiət aləmi də musiqiyə laqeyd deyil. Elə bitki, ağac növləri var ki, musiqi sədaları ilə, pöhrələnir, inkişaf edir, gözlə görünən formada titrəyir, ətrafa xoş ətir yayır. Odur ki, musiqi dünyamızın dünyası, canlı və təbiət aləminin ayrılmaz hissəsi olduğunu söyləmək olar. Tanınmış filosoflar, alimlər musiqinin insan şüuruna və dünya görüşünə böyük təsiri olduğunu söyləyib, şair və yazıçılar əsərlər yazıb, şerlər qoşublar. Elm adamları, tibb mütəxəssisləri musiqi ( əsasən klassik musiqi) sədaları altında elmi tədqiqatlar aparmış və musiqi sayəsində insanların bədən harmoniyasındakı pozğunluqların aradan qaldırıldığını sübuta yetirmişlər.

Tibb elmi təsdiq etmişdir ki, musiqi insan orqanizminə, xüsusilə də əsəb sisteminə olduqca müsbət təsir göstərir. Məhz bundan çıxış edən bəzi dünyaca tanınmış klinkalar insanların müalicəsi zamanı musiqidən bəhrələnirlər. Bir sözlə, musiqi bir möcüzə, Allah tərəfindən canlı aləmə bəxş edilən qeyri-adi qüvvədir. Dünyada yaşayan hər bir xalqın özünəməxsus musiqi mədəniyyəti var. Elə beynəlxalq musiqi festivalları olur ki, orada müxtəlif ölkələrin nümayəndələrinin oxuduqları mahnılar, ifa etdikləri musiqilər onları dinləyən müxtəlif xalqların ruhuna yol tapır, onları əzizləyir, qəlblərinə hakim olub, uzun müddət unudulmayacaq xoş hisslər yardır. Ona görə də, deyilir və yazılır ki, musiqi xalqları birləşdirir və qarşılıqlı anlaşmanı yaradır.

Dünya xalqları arasında Azərbaycan xalqı öz musiqi mədəniyyət ilə seçilən və tanınan xalqdır. Həm də, musiqinin hər növündə və janrında ifaçıları mövcuddur. Hansı ki, bu ifaçılar dünya mədəniyyətinə mühüm töhfələr veriblər və bu ənənə bu gündə davam etməkdədir.

Eyni zamanda mövcud faktlar sübut edir ki, qədim ənənələrə malik Azərbaycan xalqının musiqi yaradıcılığı dövrdən dövrə inkişaf edərək, təkmilləşib və zənginləşib. Hər yaşa görə, hər bir musiqi növünə yanaşma və demək olar ki, bağlılıq olur. Amma bütün hallarda dinlənilən əsas musiqi növü klasisik musiqidir. Muğam millətimizin sərvətidir. Ana beşikdəki, körpəsini muğam üstə yuxuya verir. Əkinçi, bağını bostanını suvaranda, muğam ilə işinə avandlıq gətirməyə çalışır. Yol gedən yolçu muğamla zümzümə etməklə yolunu qısaltmağa çalışır. Dağda, dərədə qoyun-quzu otaran çoban muğam üstdə ahəstə çəkməklə sürüsünə bərəkət qatmağa çalışır. Şənlik quran el-oba əhli muğamla büsatına xeyir gətirməyə çalışır. Bəzən dünyasını dəyişən söz, sənət adamları son mənzilə klassik musiqimizin sərvəti olan muğamla yola salınır. El-oba da milli musiqiyə bağlılıq o dərəcədə möhkəm olur ki, qanlı düşmənlər belə, bir-birini öldürərkən klassik musiqi növündən istifadə edirlər. Törədilən qətliam heç də, düşmənini aşağılamaq, təhqir etmək anlamı yaratmır. Hardasa, "rəğbət edilən düşmən" obrazının yaradılmasına xidmət edir. "Yeddi oğul istərəm" kinofilmində Kələntər dayının fitnə-fəsadı ilə tora salınan Cəlalın öldürülməsi səhnəsində Gərəy bəyin "Yanıq Kərəmi çal ağa, bəy havasıdır" deyə Aşığa göstəriş verməsi və Şəkər bəyin oğlunun güllənərək öldürülməsi buna misal ola bilər.

Bir sözlə, musiqi ucsuz-bucaqsız bir dəryadır. Bu dəryanın içində ünvana getmək, mənzilə çatmaq üçün iz tapmaq mümkünsüzdür. Olsa-olsa, milli musiqi xəzinəsində bir-iki stəkan su içmək olar ki, bu da hər kəsə nəsib olmur. Amma var. Dünəndə olub və bu gündə bu xəzinənin daşıyıcıları Alim Qasımov, Mələkxanım Əyyubov, Elnarə Abdullayeva, Zabit Nəbizadə Miraləm Mirələmov, Abgül Mirzəliyev və digərləri Azərbaycan muğamının təbliğində və təqdimatında əsarəngiz səsləri, möcəzəvi gücləri ilə mühüm rol oynayıblar. Ancaq təəssüf hissi ilə qeyd etmək lazımdır ki, orta və yaşılı nəsil musiqi xəzinəmizin incisi olan muğamla yatıb, muğamla durduqları halda yetişməkdə olan gənc nəsil bu xəzinə bulağından bəhrələnməyə can atmır. Bəzi yeniyetmələr və gənclər caz, blüz və reqqi, rok ( heavy metal) musiqi, rep və hip-hop, pop və digər musiqi növlərini dinləməyə, oxumağa, ifa etməyə maraq göstərirlər. Bəlkə də bu cür musiqiyə sevgi Avropadan Azərbaycan gənclərinə sirayət edib. Çünki Avropanın küçə və meydanlarında, konsert salonlarında gitara sədaları ilə sakit balladalar, mahnılar oxuyan gənclərə rəğbət və diqqət böyükdür. Araşdırmalarda onu deməyə əsas verir ki, bu gün caz, rok, rep və pop musiqisi dünyada geniş yayılıb və sevilən musiqilərdəndir.

Azərbaycanda isə rok, pop və bu kimi musiqilərə maraq daha çox imkanlı və vəzifəli dədələri ilə Avropanı bir "kruq" vurub, Azərbaycana qayıdan yeniyetmələr və xarici ölkələrdə təhsil almış gənclər arasında müşahidə edilir. Sahibi olduqları bahalı avtomaşınlara əyləşən dədələrinin gül balaları şəhərin küçə və meydanlarını dolaşarkən, maqintofonda yüksək səslə blüz və reqqi, rok, rep və hip-hop musiqilərini səsləndirilər. Dərinə gedib, araşdırma aparsan, bu dədəsinin gül balası anlamadığı musiqiyə qulaq kəsildiyi məlum olar. Sadəcə, yeni dünyanın müasir gənci olduğunu başa düşmədiyi musiqi ilə ətrafdakılara nümayiş etdirməyə çalışır. Guya bu vasitə ilə, hörmət, izzət qazanacaq, dost, tanışı ona "molodes" deyib, şəninə tərif söyləyəcəklər. Belələrinə məsləhət vermək, yol göstərməkdə mümkünsüzdür. Çünki, el məslədir, "Quyuya su tökməklə, quyu sulu olmaz". Gücümüz ancaq "Allah ağıl versin" deməyə çatır.

# Milli ailə dəyərlərinə zərbə haradan gəlir?

***Sosial şəbəkələrdə insanlar bir-birləri ilə tanış olub ailə qururlar. Onların içində mənim tanışlarım da var. Əlbəttə, onlar yüzfaizli xoşbəxt olmurlar, real həyatda olduğu kimi, virtual və digər formalarda ailə quran insanlar arasında da problemlər yaşanır. Yeni texnologiyaların tətbiqinin tərəfdarıyam, amma unutmamalıyıq ki, biz azərbaycanlıyıq və öz dəyərlərimiz var. Ən yeni texnologiyalar insanlara xoşbəxtlik verməklə bərabər, onlara böyük bədbəxtliklər də gətirə bilər. Bunun da artıq bir çox işartılarını görürük.***

İnternetdə, sosial şəbəkələrdə sevgi oyunları, cürbəcür əhvalatlar baş verir, bunun axırı isə çox zaman qanla, bıçaqlanma ilə bitir. Artıq ölkəmizdə bir neçə belə fakt baş verib. Gələcəkdə kütləviləşəcək bu cür mənfi halların qarşısını almaq üçün insanların intellektual səviyyəsini qaldırmaq lazımdır. Bunun üçünsə bizim milli ailə münasibətlərinin ən yaxşı cəhətlərini müasir zəmanənin standartlarına uyğunlaşdırmağı təklif edirəm...

“The Daily Telegraph” qəzetində Eleanor Muffitt yazır ki, müasir zəmanəmizdə insanların romanlarda olduğu kimi göz-gözə vurulması müşkül məsələyə çevrilir. Bir çox başqa həyat aspektləri kimi bu sahə də virtual dünyaya keçir. İndiki zamanda hər beş tanışlıqdan biri internetdə baş verir. Təkcə Tinder hər gün 26 milyon insanı “görüşdürür”.

Ən maraqlısı isə budur ki, internet tanışlığı yaş hüdudu tanımır. Yaşı 50-dən çox olanlar üçün Senior People Meet və elə “The Telegraph” qəzetinin özünün Telegraph Dating tanışlıq saytı var. Muffitt yazır ki, bir çoxları üçün internet ən münasib tanışlıq məkanıdır. Bəziləri isə düşünürlər ki, əslində internet tanışlığının öz üstünlükləri var.

1) Siz vəziyyətə nəzarət edirsiniz

İnternet tanışlığı zamanı siz özünüz haqqında özünüzün düzgün saydığınız informasiyanı, fotonu təqdim edirsiniz. Təkliflərə rahat, çəkinmədən cavab verməkimkanınız olur. Tanış olduğunuz şəxs haqqında da məlumat ala bildiyinizdən onunla sükut buzunu sındırmaq daha asan olur.

2) Namizəd bankınızı genişləndirə bilirsiniz

Match.com tanışlıq saytının ekspertləri deyirlər: “Bizim üzləşdiyimiz əsas problem coğrafi məkanımızın məhdud olmasıdır. Yəni dostlarımızın və iş yoldaşlarımızın çevrəsi məhduddur. Belə mühitdə evlənmək üçün namizəd tapmaq asan olmur”. Əgər sevgili axtarmaq üçün yaxlınlıqdakı bara getsəniz, çox az sayda potensial yoldaşla rastlaşa bilərsiniz. Amma bununla müqayisədə sizin internetdə həyat yoldaşı tapmaq üçün minlərlə namizədlə tanışlıq imkanınız var.

3) Ehtiyat variantı

Tanışlıq saytında qeydiyyatdan keçməyiniz o demək deyildir ki, siz real həyatda axtarışınızı dayandırmalısınız. Əksinə internet tanışlıq saytı əlavə güvənc yeridir.

4) Sizin üçün vaxt məhdudiyyəti yoxdur

eHarmony tanışlıq saytı bu ilin əvvəllərində apardığı sorğudan belə bir nəticə çıxarıb ki, internetdə həftənin başqa günləri ilə müqayisədə çərşənbə axşamı günü, gündüz saat 2-də daha çox adamla tanış olmaq mümkün olur. Adamlar indi daha uzun saatlar ərzində işləməli olurlar. Bu isə o deməkdir ki, belə sıx iş cədvəli ilə könül dostunu tapmaq elə də asan deyil. Amma internetdə bu axtarışla vaxtınız olan kimi məşğul olmaq imkanınız var.

5) Qapalı çevrədən çıxa bilirsiniz

Match.com tanışlıq saytının ekspertləri deyirlər ki, internet sizə real həyatda ağlınıza belə gəlməyən mükəmməl namizəd gətirə bilər. Tanışlıq saytlarından bir çoxu maraq növləri üzrə işləyir. Məsələn, Equestrian Cupid atçılığa marağı olanları, Veggie Date isə vegetarianları bir araya gətirir. Gələcək həyat yoldaşınızı barda axtaranda sanki samanlıqda iynə axtarırsınız, amma internetdə axtarışınıza dəqiq istiqamət verə bilərsiniz.

6) Ən əsası budur ki, internet tanışlığı kara gəlir

Match.com saytında başlanmış hər 5 tanışlıqdan 3-ü 6 aydan çox sürən münasibətlə nəticələnir. ABŞ-da nikahların 5 faizi eHarmony saytından başlanır. PEW Araşdırma Mərkəzinin tədqiqatı göstərib ki, Amerikada universitet məzunlarının yarısı öz ərini və ya arvadını internetdə tapan kimisə tanıyır.

Respondentlərin üçdə ikisi razılaşır ki, internetdə həyat yoldaşı tapmaq daha asan və daha səmərəlidir. İnternetdə tanış olanların tanışlıqdan evliliyə keçməsi də daha tez baş verir. Məsafəli evlənmə və ya boşanma vahid dövlət portalında yaradılan “şəxsi kabinet” vasitəsilə baş tutacaq. Evlənmək istəyənlər üçün internet VVAQ-da gün təyin olunacaq, sonra online olaraq nikah kəsiləcək. Eynilə boşanmaq istəyənlər də bu xidmətdən yararlana biləcəklər. Amma bunun üçün kart vasitəsilə xidmət haqqı da ödəniləcək. Hesab edilir ki, belə üsul vasitəsilə vaxt itkisi və əlavə xərclər də aradan qalxar.

Qeyd edək ki, ruslar indiyədək həmin portal vasitəsilə kommunal haqlarını, cərimələrini, kreditlərini ödəyə bilirdilər. Artıq evlənib-boşanmaların da portala əlavə edilməsi “Vahid pəncərə” sisteminin daha da genişləndirilməsi məqsədi daşıyır.

Lalə Mehralı yazır ki, virtual tanışlıq və bu tanışlığın evliliklə nəticələnməsi ilə bağlı son vaxtlar çox eşidirik. Bu evliliklərin bəziləri normal qaydada davam edir, bəziləri isə qısa müddətdən sonra dağılır. Maraqlıdır, bir çoxumuzun ittiham etdiyi kimi, virtual məkan tanışlığı evliliyin təməl daşını sarsıdırmı? Yaxud, insanlar evliliyini qoruya bilməyəndə günahı virtual tanışlıqda görürlər? XXI əsrdə texnologiyanın inanılmaz sürətli inkişafı bizə öz mənfi və müsbətləri ilə çox şeyi bəxş etdi, onun verdiyi bilik sayəsində bizim hər il yüzlərlə gəncimiz yüksək qiymətlərlə xaricə təhsil almağa göndərildi, onun sayəsində informasiya bazamız genişləndi. İnternetin inkişafı isə bizə həm müsbət, həm də mənfi mənada təsir etdi. Kimimiz onu yaxşı məqsədlər üçün istifadə etdik, kimimiz zərərli vərdişlərə qurşandıq. Hətta internet həyat yoldaşı seçməyimizə də kömək etdi, yüzlərlə ailə quruldu onun sayəsində, yaxşısı da oldu, pisi də. Biz pislərdən nəticə çıxardıq, yaxşıları örnək götürməyə çalışdıq və bizim də aramızda elə insanlar oldu ki, öz yarını məhz bu internetin sayəsində tapa bildi.

Ölkəmizdə internetin yeni istifadəsi illərində bu kimi tanışlıqlar o qədər də önəmli hesab edilmirdi. Daha doğrusu, o vaxt bizim internet məkanında bunun üçün saytlar yox idi. Vaxt var idi, insanlar üzbəüz ünsiyyətdən zövq alırdılar, amma indi virtual ünsiyyət daha cəlbedicidir. İnsanlar virtual məkanda hissləri daha yaxşı ifadə etdiklərini deyirlər. Psixoloq və sosioloqlar bunu ünsiyyət problemi ilə əlaqələndirirlər. Hətta bəzi sosioloqlar internet vasitəsi ilə ünsiyyəti fərdin real şəxsi ünsiyyət qurmasında ən böyük maneə hesab edirlər.

**Cəmiyyət ikitirəli düşünür**

Bu yazımız üçün sosial şəbəkələrdən birində sorğu keçirdik. “İnternetdə tanış olub evlənərdinizmi?” sualına 26 nəfərdən cavab gəldi - onlardan 12-si “evlənərəm, əsas olan sevgidir” variantını seçdi, 5 nəfər “bəlkə də evlənərəm” deyə tərəddüd etdi, 9 respondent isə “qətiyyən evlənmərəm” variantına səs verdi. İnternet vasitəsi ilə tanış olub evlənənlərin sayı artdıqca, bu məqsədlə yaradılan tanışlıq saytlarının sayı da artır. İndi bizim ölkəmizdə də onlarla bu cür sayt fəaliyyət göstərir. Onların arasında sadəcə qadınlar üçün olan saytlar da var, hamı üçün nəzərdə tutulanlar da. Düzdür, yaşlı nəsil gənclərin duyğu, düşüncələrini virtual deyil, bir-birinin gözünə baxaraq, səslərini dinləyərək etiraf etmələrinin tərəfdarıdır. Amma gənc nəsil virtual məkanda hissləri daha yaxşı ifadə etdiyi qənaətindədir.

**Evlilik təklifini internetdən edənlər**

Sosioloqlar bildirirlər ki, internetdə tanış olub evlənmək istəyən cütlüklərin əlaqələrinin 89%-də bu, istək olaraq qalır. Çünki onların ətrafındakılar bu kimi qərarlara hələ hazır deyillər. İnternetdə heç tanımadığınız biri ilə tanış olub, onunla evlənmək bir yana, onunla ilk görüşə belə, içinizdə qorxu və narahatlıq olaraq gedirsiniz. Çünki onu indiyədək yalnız internetdən, virtual olaraq tanımısınız. Hətta sizə evliliyi belə internetdə yazışanda təklif edib. Psixoloqlar isə deyirlər ki, internet tanışlığının tezliklə evliliyə çevrilməsi yolverilməzdir. Çünki insanlar bir-birini tanımadan belə bir qərar verməklə həm özlərinin, həm də gələcəkdə bu ailədə doğulacaq uşaqlarının problemlərinin təməlini qoymuş olurlar. Neçə illər bir-birini tanıyan, hətta 3-4 il nişanlı qalan cütlüklər belə evlilik zamanı problemlər yaşayırlar. O səbəbdən də, psixoloqlar internet tanışlığını tezliklə evliliklə nəticələndirməyi doğru saymırlar. Hər iki tərəf bir-birinə yetəri qədər zaman ayırmalı, virtual məkanda olduğu kimi, real həyatda da bir-biri ilə söhbətdən qaçmamalı, birbirinin haqqında hər şeyi öyrənməlidirlər.

**Evlilik qərarı verənlərin real ünsiyyəti daha önəmlidir**

Üz-üzə ünsiyyət insanlara daha çox xeyirlidir, qarşındakının gözlərinə baxmaq, hisslərini duymaq, hərəkətlərindən nəticə çıxarmaq kimi bir üstünlüyü var. Virtual söhbət yoldaşının isə qadın, yaxud kişi olmasına da bəzən əmin ola bilmirsən. Düzdür, münasibətlər irəlilədikcə onun kimliyini öyrənirsən, lakin hisslərindən yenə də əmin ola bilmirsən, içində həmişə “bəlkə” olur. Qarşılıqlı ünsiyyət zamanı səs tonu, söhbət mədəniyyəti, davranış kodeksləri, bədən dili, ünsiyyət tərzi kimi bir çox faktorlar göz önündə olur, onlar doğru qərar verməkdə yardımçı olur. Bu, bütün hallarda virtual dünyadan, bir monitorun ekranında oxunan yazılı mesajlardan və ünsiyyətdən daha realdır. Düzdür, internet tanışlığının sonu gerçəkdən tanışlıqla bitir, uzun müddətdir tanıdığınız virtual dostunuzu realda da görürsünüz, sizin onun barədə fikirləriniz ya olduğu kimi qalır, ya bütün düşüncələriniz altüst olur, ya da gözlədiyinizdən daha yaxşı nəticə baş verir. Virtual məkan dostluqları önəmlidir, amma bu dostluq evliliyə çevriləcəksə, daha diqqətli olmaq şərtdir.

**“Bizdə internetə girən qızlara normal baxmırlar”**

Müsahibim Bakı sakini, 32 yaşlı Emin Həsənlidir. O, evlənməyə hazırlaşır, gələcək həyat yoldaşını isə qadın saytlarından birində bəyənib. İndi nişanlıdırlar, bu yaxınlarda toyları olacaq. Eminə “Virtual tanışlığın evliliklə nəticələnməsi niyə qəribə qarşılanır?” deyə bir sual ünvanladım, bu da onun cavabı: “Məncə, bunun səbəbini yalnız virtual aləmlə bağlı düşüncələrin içində axtarmaq lazımdır. Bizdə belə bir rəy formalaşıb artıq, internetə girən qızlara normal baxmırlar. Sanki onlar bir qayda olaraq buraya ər axtarmağa, sevgili tapmağa, vaxt öldürməyə gəlirlər. Mənə həmişə maraqlı gəlib, niyə bizim kişilər küçədə, bayırda, parkda gördükləri qızı normal qəbul edir, ona aşiq ola bilir, evlənə bilir, amma mənəvi tələbatını ödəmək üçün, zamanını səmərəli keçirmək üçün, intellektini artırmaq üçün internetə daxil olan qızlara fərqli münasibət bəsləyirlər? Çünki çox adam fikirləşir ki, əgər qız internetdən nə istifadə edirsə, onda mütləq əxlaqsızlıq edir. Kim özü internetdən nə cür istifadə edirsə, başqalarını da özü kimi bilir”.

Emin bəydən “Qohumlarınız virtual məkanda tanış olduğunuz qızla həyatınızı birləşdirmə istəyinizə problem yaratmadılar ki?” deyə soruşdum, “Mən heç bir qohumumun işinə qarışmamışam evlənəndə, əgər könlüm məhz virtual məkanda gördüyüm birinə qonubsa, qohumlarım da bunda problem görməzlər. Önəmli olan ananın fikri idi, o, sevdiyim qızı gördü, bəyəndi”, - deyə cavab verdi.

Virtual tanışlıq ekspertlərin gözü ilə Sosioloq Əhməd Qəşəmoğlunun dediyinə görə, son dövrlər virtual tanışlıqdan ciddi münasibət gözləyənlərin sayı çoxalıb, ona görə də bəzi gənc qızlar və orta yaşlı qadınlar böyük ümidlə virtual tanışlıqla ailə qurmaq ümidindədirlər: “Onların əksəriyyətinin kompüter almalarında, internetə qoşulmaqlarında əsas səbəblərdən biri budur. Amma təəssüf ki, bu ümid çox az hallarda doğrulur. Virtual tanışlıq, sevgi münasibətləri əksər hallarda daha çox mənəvi-əxlaqi aşınmalara səbəb olur. Amma bəzi hallarda bu, uğurlu evliliklə də bitir. Qeyd etmək lazımdır ki, bizim kişilər virtual tanışlığı heç də ciddi qiymətləndirmirlər. Çox az halda bu münasibəti ciddi qəbul edirlər. Hələlik virtual eşq macəraları əksər hallarda çox ziyanlı bir oyun xarakteri daşıyır”.

Psixologiya və konsultasiya mərkəzinin psixoloqu Ülkər Nadirova deyir ki, bu məsələyə əsasən yaşlı nəsil, yeni internetə və yeniliyə öyrəşməyən və onu qəbul etməyən təbəqə neqativ yanaşır: “Bir də yaşlı nəslə oxşamaq istəyən konservant cavanlar və yaxınlarının, tanışlarının həyatında virtual tanışlıqdan zərər çəkən insanlar buna neqativ yanaşa bilərlər. Amma bildirmək istəyirəm ki, tanışlığın necə və harada baş verməsi vacib deyil. Önəmli olan tanış olan insanların bu tanışlıqdan nələr gözləməsidir. Amma artıq bu fikir normal qarşılanmağa başlanır, çünkü ətrafda bu tanışlıqdan xoşbəxt ailə həyatı quran gənclərimiz də az deyil”.

Beləliklə, müşahidələrdən və söhbətlərdən görünür ki, əvvəllər internet tanışlığı ilə evlənməyə mənfi baxanlar çox az idisə, indi düşüncələrini dəyişənlərin sayı artıb. Son illərdə bu tendensiyanın güclənməsi hiss olunur.

Ümumiyyətlə, tanışlıq yolları müxtəlif ola bilər, amma əsas məqsəd eynidir - hər kəs özünə uyğun həyat yoldaşı tapmaq istəyir və bunu bütün mümkün vasitələrlə reallaşdırmağa çalışır.

***Vahid Ömərov f.ü.f.d. dos.***

***Bütün xəbərlər Facebook səhifəmizdə***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

9 sentyabr


## "Neftçi" yunanıstanlı futbolçu ilə maraqlanır




"Neftçi" heyətini yeni futbolçu ilə gücləndirə bilər. Qol.az "Newspao"ya istinadən xəbər verir ki, Bakı təmsilçisi Yunanıstan millisinin və "Panatinaikos"un yarımmüdafiəçisi Dimitros Kovolosla maraqlanır.

Yunanıstan təmsilçisindən ayrılacağı gözlənilən 27 yaşlı futbolçunun karyerasını ölkəsində və ya xaricdə davam etdirəcəyi ilə bağlı qərar vermədiyi bildirilir. Qeyd edək ki, D. Kolovos 2019-cu ildən "Panatinaikos"da çıxış edir.

## Noyer "Bavariya"nın ən yaxşı futbolçusu seçildi



"Bavariya"da avqust ayının ən yaxşı oyunçusu müəyyənləşib. Almaniya futbol klubunun rəsmi "Tvitter" səhifəsində yer alan məlumatda qeyd olunur ki, azarkeşlər arasında keçirilən sorğunun nəticəsinə əsasən, komandanın qapıçısı Manuel Noyer ən yaxşı seçilib. Qeyd edək ki, 34 yaşlı qolkiper ötən ay Çempionlar Liqasında 4 oyunun hamısında iştirak edib, 3 qol buraxıb, yarımfinalda və finalda isə qapısını toxunulmaz saxlayıb.

## Kişilərdə erkən ölümlərin səbəbi nədir?



Kişilərdə bir sıra xəstəliklərin, habelə erkən ölümlərin mümkün səbəbi D vitamininin qanda az olmasıdır. "EureKAlert" xəbər verir ki, Löven Katolik Universitetinin əməkdaşları 40-79 yaş həddində olan 1 970 kişini müayinə edərək D vitamini metabolitlərinin səviyyəsini cari sağlamlıq göstəricilərilə müqayisə ediblər.

Bu zaman yaş həddi, bədən kütləsi indeksi, tütün məmulatlarına aludəçiliyi, əhvalı nəzərə alınıb. Nəticədə metabolit səviyyəsinin ürək-damar, xərçəng, osteoporosis (sümük kövrəkliyi) kimi xəstəliklər, habelə erkən ölüm risqinin artması ilə bağlı olduğu üzə çıxıb. Həmçinin səhhətlə bağlı gələcək fəsadları D vitamininin fəal metaboliti olan 1,25 dihidroksivitaminlə yox, əlahiddə 25 dihidroksivitaminlə təyin ediləcəyi vurğulanır./report

## Yaşlıların düzgün qidalanma çox vacibdir



Düzgün təşkil olunan qidalanma sağlam həyat tərzinin tərkib hissəsidir. Hər yaşda olduğu kimi yaşlı insanlarda da doğru və balanslı qidalanma sağlamlığın qorunma və inkişafı üçün çox vacibdir. Yaşı 60-dan yuxarı olanlar gündə dörd-beş dəfə qida qəbul etməlidir, çünki az qidalanma orqanizmdə enerjini azaldır, bu da qida rasionunda balans pozğunluğu yaradaraq ciddi sağlamlıq problemlərinə səbəb olur.

Həkim-endokrinoloq Gülay Məmmədova deyib: "Yaş artdıqca qidalanmaya ona görə fikir verməliyik ki, yaşla əlaqədar olaraq fizioloji olaraq zəifləmənin müddəti ilə maddələr mübadiləsinin zəifləməsi bir az uzansın. Müəyyən yaşdan sonra qidalanmaya ona görə fikir vermək lazımdır ki, yaş artdıqca oturaq həyat tərzi güclənir, əvvəlki aktivlik itir, hərəkətlər azalır, damar və ayaq problemləri ilə əlaqədar həm immun sistemi, həm də xəstəliklərlə mübarizə baxımından düzgün qidalanmanı gözləmək lazım gəlir".

Tədqiqatlar sübut edir ki, xüsusən də yaşlılarda yanlış qidalanma demək olar ki, bir çox xəstəliklərin ciddi şəkildə güclənməsi ilə nəticələnir.

Həkim-diyetoloq Ləman Süleymanova bildirib: "Elmi tədqiqatlar zamanı belə bir qənaətə gəliblər ki, ahıl yaşda olanlar gündəlik rasionlarında sağlam qidaları qəbul etmək yolu ilə sağlam həyat, ağrı-acısız və uzun ömür sürə bilərlər. Yaşlılar pəhriz saxlayarkən çox ciddi nəzarət altında olmalıdırlar, çünki onlarda enerji ehtiyatlarının azalması immun sisteminin zəifləməsinə və bir sıra xəstəliklərin baş qaldırmasına səbəb olur".

Yaş dövrlərində heyvan və bitki məhsulları arasındakı nisbət dəyişir. Yaşlıların qida rasionunda daha çox meyvə-tərəvəzlərə üstünlük verilməlidir. Həmin dövrdə qidalanma həyat keyfiyyətini artırmaq üçün vacibdir. Onların pəhrizində enerjiyə olan tələbat qidalanma vərdişləri, xəstəlikləri, həyat tərzi, fiziki fəaliyyət səviyyəsi və istifadə etdikləri dərmanlar nəzərə alınmalıdır.

Həkim-diyetoloqun dediyinə görə, 60 yaşdan yuxarı olanlar yavaş-yavaş rasionda şəkər, duz və heyvani yağları azaltmalıdırlar. Onların gündəlik qida rasionlarında bitki mənşəli yağlar, dəmir, kalsium, kalium, maqnezium və sinklə zəngin olan qidalar əsas yer tutmalıdır.

Sağlamlığın qorunması hər yaş dövründə vacibdir və bunun üçün düzgün qidalanma, fiziki hərəkət və sağlam həyat tərzi seçilməlidir.

## Avtomobildən oğurluq edən şəxs tutuldu

Xaçmaz rayonu ərazisində avtomobildən mobil telefon oğurlamaqda şübhəli bilinən F.Kiçibəyov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xaçmaz RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 26-da rayon ərazisində 1 avtomobildən mobil telefon oğurlamaqda şübhəli bilinən Qaraqurtlu kənd sakini F.Kiçibəyov saxlanılıb.



## Bakıda keçmiş məhkum qadına qarşı soyğunçuluq etdi

Soyğunçuluq etməkdə şübhəli bilinən Bakı şəhər sakini E.Hacıyev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Yasamal RPİ 27-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 25-də A.Behbudova zor tətbiq edib soyğunçuluq yolu ilə içərisində pul və mobil telefon olan çantasını almaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Hacıyev saxlanılıb.



## Hadisə Azərbaycana təşəkkür etdi



Türkiyəli müğənni Hadisənin "Küçük Bir Yol" mahnısına çəkdirdiyi klip Azərbaycanda trendə düşüb. İfaçı bu barədə sosial şəbəkədə yazıb. O bildirib ki, yeni ekran işi Türkiyədən başqa bir neçə ölkədə trend olub: "Sayənizdə inanılmaz bir uğura imza atırıq. Klipimiz Türkiyə siyahısında birincidir. Almaniya, Azərbaycan, Fransa və bir çox ölkələrdə ilk sıralara girən klip və mahnımıza göstərdiyiniz diqqət üçün təşəkkür edirəm".


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600